# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 12 (3525) Cümə axşamı / 4 aprel 2024-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## Ağdama köç gələn ildən başlayacaq



**Aqil Abbas,**
Milli Məclisin deputatı

***İşğaldan azad edilmiş ərazilərimizdə sürətli bərpa quruculuq işləri davam etdirilir. O cümlədən Ağdamda. "Həftə içi"nə müsahibə verən millət vəkili Aqil Abbasla həm bu, həm də digər aktual məsələlərdən danışdıq.***

*Bizim paytaxtımız Bakıdır. Ağdam isə mərkəzi şəhər statusunda nəzərdə tutulur*

Səh. 2

# Parisi dərviş yox, Makron partladacaq

***Fransanın Azərbaycana qarşı əsassız ittihamları və İrəvan-Bakı münasibətlərinin normallaşdırılması prosesinə qeyri-konstruktiv yanaşması davam edir. Paris bölgədə sülh ümidlərini tükətmək, münaqişəni yenidən alovlandırmaq üçün əlindən gələni edir. İki gün əvvəl də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar bu siyasətin davamlı və sistemli olduğunu isbatlayır. Dəfələrlə Bakıya qarşı demarşının uğursuzluqla nəticələnməsinə baxmayaraq, Makron Fransanın Ermənistan sevdası tükənmir. Əksinə, sanki bu uğursuzluqlar "ermənidən daha çox erməni" yanaşmasını daha da qüvvətləndirir. Bununla belə, Bakı da öz siyasətini yürüdür - Parisdən fərqli olaraq sistemli və məntiqi sonluğa köklənən yanaşma ilə.***



Azərbaycan üç ildir ki, dünyada Fransanın neokolonializm siyasətinin ifşası üçün beynəlxalq platformalarda fəal iş aparır. Bütün dünya Parisin ikiüzlülüyünün, hər şeydən əvvəl öz maraqları naminə dağıdıcı, separatçı və müstəmləçəki siyasətinin şahidi olmaqdadır. Yeni Kaledoniyada, Korsikada, Afrikada yaşanan bunun sübutudur. Parisin bölgəmizdəki proseslərin normal axarını əsas hədəfdən yayındırmaq cəhdləri və bu məsələdə Bakını şübhə altına almaq planları Azərbaycanın rəsmi dairələri tərəfindən də şiddətlə qınanılır. Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar növbəti dəfə Fransanın bölgədə açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq səylərinin bariz nümunəsidir.

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərh edərkən bildirib: "Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma torpaqlarından didərgin salan, kütləvi qırğınlar və insanlıq əleyhinə cinayətlər törədən Ermənistanın Fransa tərəfindən sülhpərvər ölkə kimi təqdim edilməsi bu ölkənin həm vasitəçiliyi dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra yürütdüyü siyasətin nə qədər saxta olduğunu nümayiş etdirir.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin Azərbaycanı aqqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir. Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi kimi məsul vəzifəni yerinə yetirdiyi bir dönəmdə, ölkənin imicinə xələl gətirmək məqsədi güdən və sədrliyimizi hədəf alan bu kimi çağırışlardan çəkinilməsinin Fransa və dünyamız üçün daha faydalı olacağını hesab edirik.

Məhz Fransa kimi ölkələrin son 30 ildə Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda vermədiyi hər kəsə aydın olmalıdır. Bununla Fransa tərəfi anlamalıdır ki, onun tərəfindən həyata keçirilən bu kimi destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu həm Fransanın zərər görmüş imicinə, həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək", - deyə Ayxan Hacızadə qeyd edib. Fransalı diplomatlar və siyasətçilər ya yaddaşını itirirlər, ya da sadəcə ikiüzlüdürlər.

> *"Fransalı diplomatlar və siyasətçilər yaddaşlarını itiriblər*

Bunu isə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev Fransanın yeni Avropa və xarici işlər naziri Stefan Sejurnenin Azərbaycan əleyhinə səsləndirdiyi ittihamlara cavab olaraq "X"də yazıb. "Azərbaycanın qanunla tanınan ərazisini kim dağıdıb, kim minaları oraya yerləşdirib? Ərazidə kim etnik təmizləmə aparıb və azərbaycanlıları qovub?" - deyə F.Şəfiyev sual edib.

Maraqlıdır ki, Cənubi Qafqazda Parisin dağıdığı fəaliyyəti tək Azərbaycan və Rusiyaya qarşı yox, həm də qardaş Türkiyəyə qarşıdır. Bu fakt Türkiyənin "TRT Haber" agentliyinin Parisin bölgə siyasətini ifşa edən reportajında da təsdiqlənir.

"Fransanın Ermənistandakı nümayəndələri: hədəf Türkiyədir?" sərlövhəli məqalədə İkinci Qarabağ müharibəsindən sonra "Ermənistanın yeni himayədarı" kimi ortaya çıxan Fransanın bölgəni yenidən alovlandıra biləcək addımlar atdığı vurğulanır. Qeyd edilir ki, Fransanın Zəngəzur dəhlizindən çox narahat olduğunu dilə gətirən ekspertlərin fikrincə, Afrikadakı müstəmləkələrindən qovulan rəsmi Paris bu addımlarla Türkiyəyə təzyiq göstərmək istəyir.

"TRT Haber"in müxbiri Sertaç Aksanın müəllifi olduğu yazıda vurğulanır ki, son vaxtlar Fransanın adının ən çox səsləndiyi yerlərdən biri də Ermənistandır. Paris burada addımlarını gah açıq, gah da kəşfiyyat təşkilatları vasitəsilə gizli şəkildə atır. Eyni günlərdə dərc olunan iki müxtəlif xəbərə diqqət çəkən müəllif bu yazıların, əslində, bölgə ilə bağlı əhəmiyyətli ipucları verdiyini bildirib. "Fransanın "Le Figaro" nəşrində yayımlanan məqalədə Paris-İrəvan münasibətləri ilə bağlı maraqlı detallar yer alıb. Yazıda irəli sürülən iddialara görə, Fransa Prezidenti Makron Azərbaycanın Qarabağda həyata keçirdiyi hərbi əməliyyatlar zamanı bəzi addımlar atmaq istəyib. Bunların arasında Laçın dəhlizindən keçmək, Avropadan Azərbaycanla bağlı birgə qınaq qərarı tələb etmək, Vatikandan açıqlama gözləmək kimi mövzular olub.

Səh. 4

MÜSAHİB



**Etibar Məmmədov,**
Azərbaycan Milli İstiqlal Partiyasının fəxri lideri

■ Bu seçkilər bir daha göstərdi ki, Türkiyə demokratik dövlətdir və ölkədə seçkilər azad keçirilir

■ Hələlik Ağ Evin başı qarşıdakı prezident seçkilərinə qarışıb, ona görə də Cənubi Qafqazla bağlı ciddi təsiredici fəaliyyət göstərə bilməz

■ Ukraynanın insan resursları Rusiyanınkı ilə müayisə oluna bilməsə də, iqtisadi, maliyyə və hərbi texniki yardımlar artdıqca cəbhədə kəskin dönüş ola bilər

Səh. 5

GÜNÜN FOTOSU...



**Tayvanda 7,5 bal gücündə zəlzələ baş verdi**

GÜNÜN SİTATI

> *"ABŞ müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətindədir"*



**Antoni Blinken,**
ABŞ dövlət katibi

KARİKATURA



**Bilirdim belə olacaq**

## Ölkəmizdə əhalinin neçə faizi kirayədə yaşayır?

**Elnur Fərzəliyev,**
daşınmaz əmlak sektoru üzrə ekspert

Ümumi kirayəyə verilən mənzillərin, təxminən, 30-40 faizi 200-400 manat arası ucuz mənzillərdir.

Səh. 5

STATİSTİKA



**■ 2024-cü ilin yanvar-fevral ayında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 372,2 milyon manat dəyərində əməliyyat aparılıb.**

Qeyd edək ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 11,7% və ya 38,4 mln. manat çoxdur. 2023-cü ilin eyni dövründə bu rəqəm 333,8 mln. manat təşkil edib.



Səh. 7

## Kişilər yox, qadınlar...

PREZİDENTİN İŞ GÜNÜ

# Antoni Blinken Prezident İlham Əliyevə zəng edib





**Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Antoni Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib.

Dövlət katibi sözügedən görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev qeyd edib ki, onda olan məlumata görə üçtərəfli görüşə də səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb.

Prezident İlham Əliyev aprelin 2-də Parisdə Antoni Blinken ilə keçirilmiş mətbuat konfransında Fransa xarici işlər nazirinin yalan danışaraq, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü tanımamaqda və Ermənistana qarşı təhlükə mənbəyi olmaqda ittiham etdiyini bildirib.

Dövlət başçısı Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin qənaətinə görə aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayrıcı xətlərin və nəticə etibarilə, gərginliyin yaranmasına gətirib çıxaracaq.

### Prezident Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb

hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb.

Telefon danışığı zamanı Antoni Blinken 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını vurğulayıb.

Söhbət əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh danışıqlarına dair müzakirə aparılıb. Prezident İlham Əliyev xarici işlər nazirlərinin sülh müqaviləsinin mətni üzrə Berlində apardıqları danışıqların prosesin irəlilədilməsi baxımdan faydalı olduğunu və danışıqların sürətləndirilməsinə ehtiyac olduğunu deyib.

Həmçinin dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən...

Söhbət zamanı Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Antoni Blinken bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev ilə apardığı müzakirələri qeyd edərək, ölkəsinin müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulayıb. O, həmçinin COP29 çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin təmaslarını qeyd edib.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşdə müzakirə olunan istiqamətlər üzrə Azərbaycanın da ABŞ ilə ikitərəfli əlaqələrinin inkişafında maraqlı olduğunu, COP29-un iqlim dəyişikliyi məsələləri və yaşıl texnologiyalar sahəsində ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını bildirib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Ağdama köç gələn ildən başlayacaq

***İşğaldan azad edilmiş ərazilərimizdə sürətli bərpa quruculuq işləri davam etdirilir. O cümlədən Ağdamda. "Həftə içi"nə müsahibə verən millət vəkili Aqil Abbasla həm bu, həm də digər aktual məsələlərdən danışdıq.***

## Müsahib



**Aqil Abbas,**
Milli Məclisin deputatı

***- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün danışıqlar hansı müstəvidə davam edir? Mövcud vəziyyətə diqqət çəksək, gözləntilərimiz nədir?***

- Azərbaycan sülhə hazırdır və təkliflərini verib. Ermənistan tərəfi isə regionda maraqlı olan güclərin təsiri ilə əsas hədəfdən yayındırılır. Avropa İttifaqı, Fransa mülki missiya və müxtəlif bəhanələrlə Ermənistana əsgər, silah-sursat göndərir, ölkəmizə qarşı qərəzli çıxışlar edir, işğalçı dövləti yenidən revanşizmə həvəsləndirir. Mülki missiya adı ilə sərhəddə durub bizim ərazilərə baxanlar bölgədə gərginlik yaratmaq istəyi ilə çabalayırlar. Eyni zamanda, sərhəddə hərbi təxribat yaradaraq, atəşkəsi pozaraq, bundan istifadə edib 5 apreldə keçirilən üçlü görüşdə Azərbaycana qarşı "Bizə güllə atırlar", - deyə növbəti əsassız yalanlarını tirajlasınlar. Azərbaycan bizə qarşı yönələn sərhəd, diplomatik təxribatlara hələlik səbirlə yanaşır.

Görünən odur ki, Ermənistan ordusunun bölmələri Azərbaycanla sərhəd ərazilərində yenidən səngər qazmağa başlayıblar. Əslində, Paşinyan da istəyərdi ki, Azərbaycanla sülh müqaviləsi bağlasın, heç olmasa, Ermənistanın indiki mövcudluğunu qoruyub-saxlaya bilsin. NATO, ABŞ, Fransa kimi "böyük bacıları" buna ciddi maneə yaradırlar. Paşinyan həmin qüvvələrdən qorxur və onların şirin vədlərinə inanaraq verilən təlimatlarla hərəkət edir. Eyni zamanda, NATO Ukraynada Rusiyaya məğlub olduğu üçün, yeni müharibəyə Qafqazdan daxil olmaq istəyir, lakin buna nail ola bilməyəcək.

Sülh danışıqları nə vaxta qədər davam edə bilər? İstər prezidentlər, istər xarici işlər nazirləri səviyyəsində danışıqlar aparılıb. Ermənistan tərəfi danışıqlarda bir-birini təkzib edən mövqelər sərgiləyir, eyni zamanda, üçtərəfli bəyanatın əsas bəndlərini yerinə yetirmək istəmir. Azərbaycan məcbur qalıb həmin bəyanatın bəzi bəndlərini, o cümlədən separatçıların ərazilərimizdən çıxarılması ilə bağlı müddəanı özü icra etdi. Hazırda gündəmdə Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanın götürdüyü öhdəliyi icra etməsi məsələsi dayanır. Ermənistan Zəngəzur dəhlizinin açılması məsələsindən müharibə yaratmaq istəyir. Düşünürlər ki, Zəngəzur dəhlizini açmasalar, Azərbaycanı yenə də hərbə əl atmağa vadar edə biləcəklər. Bu məsələ proseslərin gedişindən asılı olacaq və Azərbaycan buna getməyəcək.

***- Avropa və Qərbin regionla bağlı apardığı siyasətin bölgədə gərginlik yaratdığı, sülhün əldə olunmasına maneçilik törətdiyini söylədiniz. Məsələyə, həm də Ermənistanın yenidən silahlandırılması kontekstindən yanaşsaq, müharibə yenidən baş verə bilərmi?***

- Biz müharibə istəmirik, amma savaş mümkündür. Əgər Ermənistan tərəfi dəfələrlə sərhədi pozarsa, postlarımıza hücum edərsə, ilkin olaraq dörd kəndimizi geri qaytarmazsa, üstəlik, səngər qazıb, sərhədə ardıcıl qoşun yığmaqda davam edərsə, müharibənin ola biləcəyi ehtimalı çox yüksəkdir. Əvvəldə dediyim kimi, dövlətimiz müharibə tərəfdarı deyil. Məhəmməd peyğəmbərin (s.ə.s.) belə bir sözü var, deyir: "Savaş, sənə qarşı savaşanlarla savaş". Türklərin də belə bir sözü: "Savaş istəyirsənsə, onu alacaqsan".

***- Aprelin 5-də Avropa İttifaqı, ABŞ, Ermənistanın Brüsseldə üçlü görüşünə toxundunuz və regionda erməniləri silahlandırdıqlarını, gərginlik yaratmaq cəhdlərini vurğuladınız. Əgər müharibə olarsa, beynəlxalq güclərin müdaxiləsi nə dərəcədə mümkündür?***

- Qərb, Avropa bölgəyə hərbi müdaxilə edə bilməz. NATO Ermənistana qoşun göndərəcək?! Əlbəttə ki, mümkün deyil. Hələ iki ildir ki, Ukraynaya dəstək üçün hərbi qüvvə göndərmir.

Ermənistana Avropa İttifaqı, Fransa kimi mülki missiya göndərə bilərlər. Qoşun göndərsə, dünya ayağa qalxar. Bütün hallarda Azərbaycana münasibətdə ikiüzlü, ikilistandartlı, həyasız yanaşmaları görəndə bunlardan hər şeyi gözləmək mümkündür. Təbii ki, biz bütün tədbirlərimizi görürük.

***- Qarabağdan öz xoşu ilə köçüb-gedən erməni azlığının hüquq müdafiəçisi kimi çıxış edən Avropanın bəzi dövlətləri, təsisatları bu məsələni ölkəmizə qarşı təsir mexanizmi kimi itiləyir. Necə hesab edirsiniz, azərbaycanlılarla ermənilərin birgə yaşayışı mümkündür?***

- Belə bəhanələrlə heç kəs Azərbaycana təsir göstərə bilməz. Vaxtilə Azərbaycan ərazilərində yaşamış ermənilər torpaqlarımızın uzunmüddətli işğalı başa çatandan sonra, özləri könüllü olaraq ərazilərimizi tərk ediblər. Ölkə başçısı bəyan edib ki, gedən ermənilər vətəndaşlığımızı, konstitusiyamızı qəbul edib sülh şəraitində yaşamaq istəyərlərsə, gəlib Qarabağda və ətraf rayonlarda köç sala bilərlər. Onu da qeyd edim ki, Ağdərədə, Xankəndidə, Əsgəranda evlərin hamısından silah-sursat aşkar edilib. Qarabağdan köçən ermənilər, az qala, bir ordunu təmin edə biləcək silah-sursat qoyub-gediblər. Görünür, belə planlaşdırıblar ki, Ermənistandakı Qarabağ erməniləri geri gəlsələr, evlərdə saxladıqları silahları götürüb yenidən müharibəyə başlasınlar. Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşları çox çevik və ayıq-sayıq işləyirlər.

*Bizim paytaxtımız Bakıdır. Ağdam isə mərkəzi şəhər statusunda nəzərdə tutulur*

O ki qaldı azərbaycanlılarla ermənilərin birgəyaşayışının nə dərəcə mümkün olmasına, bu mümkündür; amma bir halda: üzr istəməlidilər və dağıtdıqlarını gəlib bərpa etməlidirlər. Ondan sonra mümkündür. Münaqişə zamanı da Azərbaycanın digər bölgələrində ermənilər yaşayıb. Necə ki, əvvəllər yaşayıblar, bundan sonra da deyilən şərtlərlə yaşaya bilərlər. Mənim şəxsi fikrim budur ki, erməniləri Qarabağa buraxmaq lazım deyil.

***- Ermənilərin Qarabağa geri qayıtması ilə İrəvandan deportasiya edilən azərbaycanlıların öz yurdlarına qaytarılmasının paralel şəkildə aparılması məsələsi də tez-tez önə çəkilir. Buna fikriniz nədir?***

- Qərbi azərbaycanlıların öz dogma torpaqlarına qayıdışı, birinci növbədə, təhlükəsizliyin təmin edilməsindən sonra mümkün ola bilər. Əslində, bu prosesin paralel aparılması doğru olardı. Ermənistan və havadarları ermənilərin Qarabağa qayıtmasını istəyirsə, zəhmət çəkib eyni istəyi Ermənistandan məcburi qovulan azərbaycanlılar üçün də düşünsünlər.

***- İşğaldan azad edilən ərazilərin yeni idarəetmə modelində hansı məqamların olmasını istərdiniz?***

- İşğaldan azad olunmuş ərazilər Qarabağ, Şərqi Zəngəzur iqtisadi zonalarına bölünüb. Hər bir ərazi üzrə Prezidentin xüsusi nümayəndəlikləri yaradılıb. Sonrakı dövrlərdə idarəetmə modelinin necə olacağı barədə dəqiq fikir bildirə bilmərəm.

***- Yeni idarəetmə modelində bələdiyyələrə xüsusi səlahiyyətlərin verilməsi məsələsi öz əksini necə tapa bilər?***

- Gərək əhali öz kəndinə, şəhərinə qayıtsın ki, orada bələdiyyələr də fəaliyyət gösətə bilsin. Hələ keçmiş köçkünlər tam olaraq öz yurdlarına geri qayıtmayıblar. Yalnız Laçına, Füzuliyə, Zəngilana Zabuxa, Suqovuşana, Talışa qayıdışlar olub. Gərək əhali azad olunmuş ərazilərdə tam yerləşsin ki, bələdiyyələri də formalaşdıra bilsinlər.

***- Ağdamda bərpa-quruculuq işləri necə gedir və görülən işlər, yeniliklər nə yerdədir?***

- Mən Ağdam şəhərinə tez-tez gedirəm. Orada böyük bərpa-quruculuq işləri başlayıb. Cənab Prezidentin iradəsi ilə ilk olaraq sərhəd bölgələrdəki ərazilərin bərpa edilərək, əhalinin yerləşdirilməsi nəzərdə tutulub. Ordu arxasında xalqın nəfəsini hiss edəndə daha da güclü olur. Bununla yanaşı, digər işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Ağdamda da tikinti işləri sürətlə davam edir. Yaşayış üçün evlər, məktəblər, konfrans binaları, otellər hazırdır. Ağdamda tədbirlər keçirilir, qonaqlar qəbul olunur. Orada 7 fevral Prezident seçkiləri keçirildi və mən Ağdamda səs verdim Yəni işlər uğurla irəliləyir.

Qeyd etməliyəm ki, işğaldan azad etdiyimiz ərazilərin yenidən tikilməsi, bərpası üçün xarici dövlətlərdən borc almırıq. Bütün işləri öz maliyyə gücümüzlə həyata keçiririk. Borc almaqla kimlərdənsə asılı vəziyyətə düşmək istəmirik. Bəzi türk dövlətlərinin məktəb və digərr məntəqələrin tikintisi ilə bağlı bizə dəstəyi olsa da, Qərb, Avropa dövlətlərindən ölkəmizə bərpa-quruculuqla bağlı humanitar yardım edilməyib. Azərbaycanın şəhər və kəndləri erməni işğalı nəticəsində dağıdılıb, talan edilsə də, başqalarına qarşı humanist davranmağı seçirik. Biz Türkiyədə baş verən zəlzələdə zərərçəkən türk qardaşlarımıza evlər tikirik. Azərbaycan dövləti öz hesabına bu problemləri də həll etmək gücündədir.

Bütövlükdə işğaldan azad olunan ərazilərdə aparılan bərpa işləri tam olaraq 2040-cı ilə qədər başa çatmalıdır. Mənə elə gəlir ki, yaxşı işləsək və camaat öz yurduna köçürülməyə başlasa, bu vaxtı önə çəkə bilərik. Camaat öz torpağına köçəndən sonra, maldarlıq, pambıqçılıq, üzümçülüklə məşğul olub təsərrüfatını yaradacaq, həyat şəraitini yaxşılaşdıracaq. Sənaye obyektləri işləyəndən sonra bərpa daha sürətlə gedəcək.

Unutmayaq ki, sovet hökuməti kəndlərdə heç kimə ev tikməyib. Camaat kəndlərdə evini öz qazandığı pulla tikirdi. Ağdam işğal olunmasaydı, indi Azərbaycanın dövlət büdcəsi 34 milyard yox, 50 milyard olardı.

Ağdam dövlətə hər il 150 min ton üzüm, 100 min ton pambıq verirdi. 10-15 sənaye obyektləri, şərab zavodları var idi. Həmin müəssisələr yenidən tikiləndə, inkişaf, bərpa prosesi daha sürətlə gedəcək.

***- Bu sürətlə Ağdamı paytaxt kimi görmək istəyənlər də var.***

- Bizim paytaxtımız Bakıdır. Ağdam isə mərkəzi şəhər statusunda nəzərdə tutulur. Bunun üçün Ağdamda 100 min əhalinin yaşaması planlaşdırılır. İnanıram ki, Ağdamın əhali sayı bu həddi keçəcək. İşğaldan əvvəl Ağdam şəhərində 60 min əhali yaşayırdı. Yəqin ki, indi şəhər əhalisi 89 min olub. Kənardan da gələnlər olacaq. Ağdama hər zaman kənardan gəlib işləyənlər, yaşayanlar olub. Beləcə, Ağdam böyüyəcək, inkişaf edəcək.

***- Ağdama ilk köç nə zaman olacaq? İlkin olaraq kimlər köçürüləcək?***

- Gələn ildən Ağdama köç başlayacaq. İlkin olaraq köçürülən insanlar yataqxanalarda, inzibati binalarda, zirzəmilərdə yaşayanlar olacaq. Düzdür, Qobu və digər ətraf kəndlərdə salınan şəhərciklərdən də köçürülmələr olub. Bu günə qədər əsasən yaşayış yeri ağır olanların köçürülməsinə üstünlük verilib.

***- Qarabağın bərpa prosesində öz evini tikmək istəyən keçmiş məcburi köçkünlərə müraciət ediləcəyi deyilirdi. Gələn il Ağdama köç başlayacaq. Bununla bağlı kimlərə müraciət edilib?***

- Torpaqlar işğaldan azad olunandan sonra bununla bağlı ilk müraciəti mən etmişdim. Ağdam camaatına müraciət etmişdim ki, kimin ev tikməyə imkanı varsa, öz evini, hətta qonşunun da evini tiksin. O zaman mənə bəlkə də 500-600 adam zəng etdi ki, hazırıq. Ağdamlılar fərasətli adamlardır, pul xərcləməyi də bilirlər, qazanmağı da.

İndi Ağdam başqa cür tikilir. Hərə gedib özünə bir ev tiksə, şəhərdə fərqli mənzərə yarana bilər. İndi Ağdam şəhər tipində qurulur. Əvvəllər Ağdam kənd-şəhər idi. Füzuli də onun kimi hesab olunurdu. Ona görə də hər kəs gedib öz bildiyi kimi evlər tikə bilməz. Gələcəkdə insanlara öz şəxsi evlərini tikmələri üçün kənar yerlərdə imkan yaradılacaq. Şəhərə insan nəfəsi dəyəndən sonra, yəqin ki, bunlar da olacaq. Ağdamın kəndləri tikilir. Şübhəsiz, ailələr böyüdükcə insanlar kənarlarda aldıqları torpaq sahələrində öz övladlarına evlər tikəcəklər. Beləcə kəndlər böyüyəcək.

***- Qarabağda yaşayış məntəqələrinin sayının azaldılacağı müzakirə edilir. Bu proses Ağdamda da yaşanacaqmı? Ağdamlılar bu qərarı necə qarşılayırlar?***

- Ağdamda yaşayış məntəqələri azaldılmayacaq. Ağdamda 5-10 min əhalisi olan kəndlər var. Təkcə Qərvənd kəndində 10 mindən çox insan yaşayır. Ona görə də həmin kəndləri birləşdirmək mümkün deyil. Deyək ki, Qubadlıda, Kəlbəcərdə gedib dağın başında beş nəfər özünə ev tikib, başqa bir yerdə 20 nəfər bir kənd salıbsa, onları, təbii ki, birəşdirmək olar.

***- Bir müddət əvvəl "İmarət" stadionuna "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanovun, ya da Milli Qəhrəman Allahverdi Bağırovun adının verilməsi müzakirə olunurdu. Bu məsələ ilə bağlı yekun qərar varmı?***

Bu məsələni çox müzakirə edirlər. Əvvəla, Ağdamda tarixi əhəmiyyəti olan "İmarət" kompleksi futbol oynamaq üçün stadion olmayıb.

"İmarət" konsertlər, şənliklər üçün nəzərdə tutulan məkandır. Kompleks Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət olacaq.

İndi "İmarət" adında 15 min nəfərlik stadion tikilir. Həmin ərazi Ağdamın Əhmədavar kəndi istiqamətindədir. Belə fikirlər var ki, ora Qurban Qurbanovun adı verilsin.

Allahverdi Bağırov "Qarabağ" futbol komandasının oyunçusu, kapitanı, məşqçisi, sonra sponsoru olub. Müharibə zamanı, hətta gəlib komanda heyəti ilə görüşüb qayıdıb. Şəhiddir, Ağdamın Milli Qəhrəmanıdır. Allahverdi Bağırov təkcə Ağdamda deyil, Qarabağda bir əfsanədir. Təbii ki, "İmarət" stadionu Allahverdi Bağırovun adını daşıya bilər.

Qurban Qurbanova gəlincə, onun adı Uşaq Futbol Akademiyasına verilə bilər. Adamlar Qurban Qurbanova heykəl qoymağa hazırdır. Yəni bütün hallarda hər kəsin haqqı özünə verilməlidir.

✍ **Tahirə Qafarlı**

# Qərb Ermənistanı yeni müharibəyə sürükləyir

***Ermənistan silahlı qüvvələrinin sərhəddə canlı qüvvə və zirehli texnika cəmləşdirməsi, yenidən atəşkəsin pozulması hallarının yaşanması regiona yaxşı heç nə vəd etimir. Ekspertlər baş verənləri Ermənistanda revanşist qüvvələrin aktivləşməsi ilə əlaqələndirir. Regionda işğalçı dövlətlə Qərbin, Avropanın üçlü hərbi alyans yaratması birmənalı qarşılanmır. Bu proses Avropa İttifaqı, ABŞ, Ermənistan rəsmilərinin aprelin 5-də nəzərdə tutulan Brüssel görüşü ərəfəsində yaşanır. Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəd bölgədə hərəkətlənməsi sabitliyə hər hansı təhdidi yaradırmı?***



## Müzakirə

■ **Siyasi şərhçi Əli Mustafa hafta.az-a bildirib ki, ABŞ və Avropa İttifaqının Ermənistanla planlaşdırdığı 5 aprel görüşü regionda erməni revanşizmini yenidən alovlandırır.**

Onun sözlərinə görə, geosiyası maraqların çarpazlaşdığı bölgədə yerləşdiyimiz üçün gərginlik davam edəcək:

"Azərbaycan haqqını öz gücü ilə bərpa etdi. Qərb, Avropa Azərbaycanı regionun güclü mərkəzi olaraq həzm edə bilmir. Azərbaycan ərazilərini öz xoşuna tərk edən ermənilərin "etnik təmizləmə" iddiası ilə geri gətirilməsi tələbi ilə çıxış edərək, bu bəhanələrlə Azərbaycana qarşı təsirlər etməyə cəhdlər edilir".

Ekspert qeyd edir ki, Avropanın, Qərbin "demokratiya", insan haqları" pərdəsinə bürünərək başqa xalqları, dövlətləri özünün təsiri altına salmaq üçün istifadə etdiyi "silahların" yeni reallıqda təsirsiz oluğunu görən güclər, bu gün görünməyən müharibəni Cənubi Qafqazda erməni alətindən istifadə edərək davam etdirir.

"Maraqlı güclər öz hədəflərinə çatmaq üçün regionun əsas körpü, mərkəz rolunda çıxış edən Azərbaycanı zəiflətmək cəhdi ilə çabalayır. Ona görə də istənilən vasitələrlə üzərimizə gəlirlər. Eləcə də bu gün Ermənistanın sərhəddə hərbi texnika cəmləməsi sadəcə görüntü xarakteri daşımaya bilər. Ermənistana hərbi dəstək verdiyini nümayiş etdirən Qərbin, Avropanın müəyyən maraqlı dairələri bununla bölgədə əzələ nümayiş etdirir".

Ə.Mustafa qeyd edib ki, Azərbaycan 30 il müddətində Avropadan, Qərbdən gələn bu cür təzyiqləri, eləcə də laqeyd yanaşmaları görüb:

"Bu həmin ABŞ, həmin Qərbdir ki, 30 illik işğal dövründə Azərbaycanın haqqını qoruyan addımlar atmadı. Müharibədən sonra da dağıdılmış Azərbaycan ərazilərində mina probleminin həllinə hər hansı dəstək vermədi, hər hansı kəndin bərpasına yardım etmədi. Bütün bunların əvəzinə Qərb Ermənistanı yeni müharibəyə hazırlayır, Azərbaycana qarşı silahlandırır. Bu olduqca yaramaz münasibətdir, regiona daxil olmaq üçün bir bəhanədir. Cənubi Qafqaz dünyanın tranzit mərkəzi olaraq ən ciddi bölgələrindən biridir. Hazırda Rusyanın bölgədən çıxarılması, Qərbin daxil olması prosesi gedir. Ona görə də belə təhdidlərlə üzləşəcəyik".

■ **Siyasi şərhçi Qulu Məhərrəmli 5 aprel görüşünü Qərbin, Avropanın uzun illər regionla bağlı qurduğu oyunların davamı kimi dəyərləndirib.**

Onun fikrincə, Cənubi Qafqaza sahiblik etmək istəyən Avropa və Qərbin hərbi koalisiyada regionun ən güclü dövləti olan Azərbaycanı zəiflətmək üçün etdiyi bu çabaların Brüsseldə hansı qərarla dəyişəcəyindən asılı olmayaraq, özünü sərgilədiyi manevrlərində açığa çıxarır.

"Le-Fiqaro" qəzetində Ermənistanın səmimi olaraq yalnız Makron tərəfindən dəstəklənməsi ilə bağlı verilən mesajlarının ardınca Brüsseldə planlaşdırılan üçlü görüşün bir-biri ilə əlaqəsi var və region üçün ürəkaçan təminat vermədiyi indidən bəlli olur". Q.Məhərrəmli qeyd edir ki, Qarabağ münaqişəsi başlayandan bu yana "Le Fiqaro" qəzeti Azərbaycana qarşı həmişə qərəzli münasibət bəsləyib. Onun fikrincə, Qərbin, Avropanın təbliğat maşınlarının siyasəti məhz region maraqlarının təminatına yönələn qorxulu ideoloji silahdır. Ekspert burada eyni zamanda erməni diasporu, xristian amili, erməni təəsübkeşliyinin də müəyyən rol oynadığını önə çəkib: "Fransa özünü mədəniyyətin beşiyi adlandırsa da, münaqişəli vəziyyətdə erməni diasporunun, erməni bankirlərinin təsiri, dəstəyi ilə ədalətsiz mövqe tutur. Pulla həqiqətin üstünü örtmək olmur. Avropanın regional siyasəti birmənalı qərəzlidir, demokratiya adına yaraşmır. Azərbaycan öz gücündən istifadə eimәlidir. İmkanlar bərabər olmasa da, təbliğat siyasətimizi ağılla, bacarıqla, dünya standartlarına uyğun olaraq aparmalıyıq".

■ **Deputat Fəzail Ağamalı Avropanın, Qərbin regionla bağlı niyyətinin Rusiyanı Cənubi Qafqazdan çıxarmaq olduğunu bildirib.** Rusiyanın Cənubi Qafqazda yalnız Ermənistanda olduğunu deyən deputat Qərbin Ermənistan vasitəsi ilə regionda məskunlaşmaq, geosiyasi, iqtisadi maraqlarını təmin etmək üçün bütün vasitələrə əl atdığını önə şəkib.

> *Maraqlı güclər öz hədəflərinə çatmaq üçün regionun əsas körpü, mərkəz rolunda çıxış edən Azərbaycanı zəiflətmək cəhdi ilə çabalayır*
>
> *Avropanın regional siyasəti birmənalı qərəzlidir, demokratiya adına yaraşmır*
>
> *Avropa, Qərb təsisatları Azərbaycana təsir edə bilməz*
>
> *Ermənistan təxribatlara əl atarsa, uduzan tərəf olacaq*

Onun fikrincə, bütün bu oyunların kökündə geosiyasi, geoiqtisadi əhəmiyyət daşıyan Zəngəzur dəhlizi dayanır:

"Avropa, Qərb təsisatları Azərbaycana təsir edə bilmirlər. Azərbaycan müstəqil siyasət aparır və kifayət qədər məsuliyyətli, ləyaqətli, özünə hörmət edən lideri var. Ermənistan isə Qərbin, Avropanın əlində oyuncaqdır, başqalarına xidmət etməyə üstünlük verən etnosdur. Bu keyfiyyətləri özünün dövlətçilik ənənəsi olmayan Ermənistanın dövlət siyasətində ifadə edilir. Qərb bir tərəfdə Rusiyanın Cənubi Qafqaz mövqeyinə zərbə vurub onu bölgədən çıxarmaq, digər tərəfdən isə Azərbaycana təsir edərək onu öz geosiyasi maraqlarına tabe etmək məqsədi güdür. Ona görə də Ermənistan vasitəsilə Azərbaycana təzyiqlər göstərir, onu gərginliyi saxlamaq üçün stimullaşdırırlar".

F.Ağamalı bütün bunlarla yanaşı bu oyunlarla Azərbaycana təsir etməyin mümkünsüz olduğunu və nəticə etibarilə Ermənistanın uduzacağını deyib.

F.Ağamalı hesab edir ki, Avropanın Rusiyanı bölgədən çıxışdırmaq, Ermənistanı silahlandırmaqla üzərindən regionda möhkəmlənmək istəyi və nümayiş etdirdiyi qərəz, yaratdığı gərginlik və Ermənistanla hərbi pakt imzalamaq istəyi bölgədə müharibə riskini artıra bilər.

"Bu gün 8 kəndin Azərbaycana qaytarılması ilə bağlı Ermənistanda fərqli fikirlər var. Paşinyan komandası ilkin mərhələdə 4 kəndin qaytarılmasını məqbul saysa da, hərbi rəhbərlikdə buna qarşı əks mövqelər var. Ona görə də yeni gərginliyi istisna etmirəm. Azərbaycan artıq 8 kəndin bütünlüklə azad edib həmin ərazilərdə öz bayrağını asmalıdır".

Aprelin 5-də keçiriləcək görüşünə diqqət çəkən deputat burada təhlükəszlik təminatı adı altında Ermənistanı silahlandırma niyyətinin olduğunu deyib.

"Fransa, Yunanıstan, İran, Hindistan və hətta Rusiyanın özü erməni milyaderlərinin əli ilə Ermənistanı silahlandırmağa güclü meyl göstərir. Bu dəfə qarşıdurma olarsa artıq Ermənistanın dövlətçiliyi olum, ya ölüm ərəfəsində olacaq".

■ **Hərbi ekspert Şair Ramaldanov qoşunların ölkədaxili hər hansı bir istiqamətdə istifadə edilməsini hər bir dövlətin daxili işi hesab etsə də, diqqəti bir neçə nüansa çəkib.**

O, Ermənistanın tutduğu mövqe və ritorikasındakı dəyişikliyi, aprelin 5-də Brüsseldə təhlükəsmzlik məsələsi ilə bağlı nəzərdə tutulan üçlü görüşü, 4 kəndin qaytarılması ilə bağlı məsələləri önə çəkərək sərhəddə gərginliyi alovlandıran proseslər kimi qeyd edib. Ekspert Ermənistanın sülh müqaviləsi ilə bağlı vaxtı uzatmasını Qərb, Avropa havadarlarının təsiri kontekstində qiymətləndirib.

"Regionun yeni oyunçuları olan Fransa, Amerika Ermənistanı öz maraqları müstəvisində qızışdırır. Belə bir müstəvidə ermənilərin sərhəddə hər hansı təxribat törətməsi istisna edilmir. Qərbin, Avropanın ssenarisinə əsasən Ermənistan gərginlik yaratmalıdır ki, beynəlxalq institutları işə cəlb edib, qərəzli qərarların qəbul olunmasına nail olsunlar".

Ş.Ramaldanov Azərbaycan Ordusunun prosesi nəzarətdə saxladığını, ciddi ehtiyat tədbirləri gördüyünü qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bundan sonra da üzərinə düşən vəzifələri qətiyyətlə icra edəcək. Əgər təxribatlar olarsa, Azərbaycan düşmənə daha tutarlı cavab verəcək:

"Azərbaycan Ermənistan bölmələrinin, texnikalarının sərhəddə toplanması ilə bağlı öz tədbirlərini görəcək. Ermənistanın Azərbaycana qarşı hər hansı bir formada güc göstərməyə, iri miqyaslı hərbi əməliyyatlar aparmağa hərbi gücü, imkanı yoxdur. Ermənistan təxribatlara əl atarsa uduzan tərəf özü olacaq".

Ş.Ramaldanov hesab edir ki, aprelin 5-də Brüsseldə keçirilməsi nəzərdə tutulan üçlü görüşdə Ermənistan üçün silah alınması ilə bağlı qərarlar alına bilər:

"Brüsseldə qəbul olunan qərarlar Rusiyanın regiondakı maraqlarını, mövqeyini məhdudlaşdıracaqsa, bu, Rusiyanın Ermənistana qarşı təsirini artıra bilər. Ermənistan Rusiya üçün rəqib olmasa da, bir neçə ssenari işləyə bilər. Bu, terror, çevrilişlə bağlıdır. Digər tərəfdən, Rusiya Ermənistanı Krım, Osetiya kimi öz vilayətinə çevirə bilər. Belə bir şəraitdə ABŞ, Qərbin Ermənistana kömək edə biləcəyini düşünmürəm. Ukrayna-Rusiya müharibəsi fonunda Qərbin, Avropanın sərgiləyə bildiyi dəstək bütün dünyaya, xüsusən də Ermənistana dərs olmalıdır".

✍ *Tahirə Qafarlı*

## Müsahib

***2020-ci ilin 44 günlük savaşından sonra, Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar Qərbin, Avropanın maraqlı dairələri tərəfindən narahatlıqla izlənir. Ermənistanın təcavükar siyasəti və beynəlxalq hüquqa zidd, cinayətkar hərəkətlərini görməzdən gələn Avropa və Qərb təşkilatları, dövlətləri regionda sülhün bərqərar olması istiqamətində yeni maneələr yaratmağa çalışır. Ermənistan sülhə məcbur edilmir, işğalçı siyasətinə görə məhkəmələrə cəlb olunmur, silahlandırılır, işğala məruz qalan Azərbaycana qarşı müxtəlif qərəzli çıxışlar, qətnamələr qəbul olunur. "Həftə içi"nə müsahibə verən deputat Məlahət İbrahimqızı bir sıra məsələlərə diqqət çəkib.***



**Məlahət İbrahimqızı,**
Milli Məclisin deputatı

# Qafqazın taleyi Azərbaycanın əlindədir

***- Avropa Birliyinin, ABŞ-nin, Fransanın Azərbaycana qarşı qərəzli, əsassız hücumlarının arxasında hansı maraqlar durur? Cənubi Qafqazda nəyə nail olmağa çalışırlar?***

- Avropa və Qərbin öz maraqları naminə ayrı-ayrı bölgələrdə yaratdıqları kataklizmlər, qərəzli yanaşmalar cəmiyyətdə təəssüf hissi və daha çox şok yaratmaqdadır. Bir qədər əvvəl Avropa Birliyi, ATƏT, Avropa Şurası, BMT-nin ayrı-ayrı ölkələrə münasibətdə baş verən haqsızlıqlara ikilistandatlı yanaşmaların olması tənqid edilirdisə, indi tamamilə fərqli mənzərə ilə qarşılaşırıq. Məhz II dünya müharibəsindən sonra Fransa, ABŞ, Almaniya və digər ölkələr insan hüquqlarını beynəlxalq dəyər kimi gündəmə gətirərək, onun müdafiəsi üçün bir çox təşkilatlar yaratdılar. Münaqişə və müharibə ocaqlarının yarandığı ölkələrdə cərəyan edən prosesləri araşdırarkən bir acı həqiqət ortaya çıxır. Məlum olur ki, özlərini "demokratik dəyərlərin beşiyi" sayan ölkələr hər zaman ayrı-ayrı xalqları, dövlətləri təsir altında saxlamaq üçün onlara təzyiqlər edirlər. Bu gün isə Avropanın ayrı-ayrı təsisatları maraqlı olduqları bölgələrdə ölkələrə qarşı müstəmləkəçiliyin, əsarətin yeni bir üslubunu müəyyənləşdiriblər. Əgər əvvəllər öz məqsədlərini ustalıqla gizlədirdilərsə, indi artıq açıq şəkildə hücuma keçir, haqlının deyil, haqsızın yanında dayanmaqdan çəkinmirlər. Çox güman ki, Avropa İttifaqı, ABŞ, Ermənistan rəsmilərinin aprelin 5-də Brüsseldə keçirilən görüşdə bölgə ilə bağlı hansı təhdid ocağının yaradıldığı həmin qurumların mahiyyətini bir daha açacaq.

Bu gün həmin məkrli missiyanın açıq şəkildə işğalçı Ermənistanı dəstəkləyən Fransa tərəfindən həyata keçirildiyini müşahidə etməkdəyik. Bu onu göstərir ki, məlum təşkilatlar rüşvət, korrupsiyaya görə başqalarının marağını müdafiə edir. Anlamırlar ki, Azərbaycan da digər ölkələr kimi beynəlxalq hüquq çərçivəsində eyni hüquqlara malik müstəqil dövlətdir. Ermənistan silahlandırılır. Niyyət bu ölkəni hərbi plasdarma keçirməkdir. O da hər kəsə yaxşı məlumdur ki, Ermənistanı səmimi müdafiə etdiklərini bəyan edən Fransa, ABŞ siyasətçiləri həmin ölkələrdəki güclü erməni diasporasının pulu ilə hərəkət edir. Bu faktlar Avropa məhkəmələrində ifşa olunub.

***- Aprelin 5-də Brüsseldə regiona qarş hansı yeni təhdidin bünövrəsi qoyula bilər?***

- Bu, gündəmdə olan və ciddi müzakirə edilən məsələlərdən biridir. Azərbaycanla ABŞ bir sıra mühüm məsələlərdə yaxın işbirliyinə malikdir. O da məlumdur ki, ABŞ antiterror koalisiyası yaradan zaman Azərbaycan oraya ilk qoşulanlardan olub. Görünən budur ki, həmin dövlətlərin şəxsi maraqları bütün bu məsələlər kölgədə qoyur. Bu gün Ermənistan, Avropa İttifaqı, ABŞ-nin birlikdə konfrans keçirməsi bir daha Cənubi Qafqaza yeni bir ayrıseçkilik xəttinin çəkilməsini göstərir.

> *Qərbin, Avropanın oyunları iflasa uğrayacaq*
>
> *Ermənistanı səmimi müdafiə etdiklərini bildirən Fransa, ABŞ siyasətçiləri həmin ölkələrdəki güclü erməni diasporasının pulundan bəhrələnirlər*

Aydındır ki, Qafqazda üç ölkə var və bölgənin taleyini həll edən əsas ölkə Azərbaycandır. ABŞ, Fransa kimi dövlətlər bk açarı əlimizdən almaq istəyirlər. Görünən odur ki, Azərbaycan kimi ərazisi, əhalinin sayı kiçik bir dövlətin müstəqil siyasət yürütməsi, regionun güclü bir dövləti kimi daha geniş bölgədə böyük oyunçuya çevrilməsini həzm edə bilmirlər. Bu hallar bizi o dərəcədə düşündürmür. Azərbaycan öz düşmənlərini zərərsizləşdirmə siyasətini gözəl şəkildə yürüdür. Azərbaycan dövlət başçısının əyilməz, qətiyyətli siyasi iradəsi var. Onun apardığı siyasət öz dövlətinin, eyni zamanda bu bölgəinn marağına xidmət edir, bölgənin inkişafının təminatçısıdır. Ermənistan sülhə dəvət edilmək əvəzinə təhlükəszilik təminatından danışaraq sülh prosesindən yayındırırlar. İstənilən halda Qərbin, Avropanın oyunları iflasa uğrayacaq.

✍ *Tahirə Qafarlı*

# XİN-lər arasında siyasi məsləhətləşmələr keçirilib

**2 apreldə Podqoritsa şəhərində Azərbaycan Respublikası və Monteneqro Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

XİN-dən verilən xəbərə görə, Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Monteneqro nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin dövlət katibi Milislav Raspopoviç rəhbərlik edib.

Mələhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, eləcə də ölkəmiz tərəfindən həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb.

Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Bu xüsusda 2024-cü ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasına (COP29) hazırlıq və görüləcək işlərlə bağlı qarşı tərəf məlumatlandırılıb.

Görüşdə post-münaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi, orada həyata keçirilən bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Siyasi məsləhətləşmələr zamanı, həmçinin beynəlxalq, regional məsələlər və birgə maraq kəsb edən digər mövzular da müzakirə olunub.

Səfər zamanı F.Rzayev həmçinin Monteneqronun digər rəsmi şəxsləri ilə işgüzar görüşlər keçirib.

# Milli mənlik şüurumuz

## Layihə

***Dünyada sürətlə baş verən qloballaşma və inteqrasiya prosesləri hər bir millətin milli kimliyinə sahib çıxmasının vacibliyini gündəmə gətirir. Qeyd edək ki, hər bir xalqın milli kimliyi dedikdə, ilk növbədə, onun təmsil etdiyi ölkənin vətəndaşlarının özünü indifikasiyası başa düşülür. Ölkəmizdə bu funksiyanı Azərbaycançılıq ideyası tamamlayır. Dövlətimiz öz vətəndaşlarının milli kimlik şüurunun inkişaf etdirilməsi məqsədilə xüsusi milli siyasət həyata keçirir ki, onun da mahiyyəti azərbaycanlıların milli xüsusiyyətlərinin saxlanması, dilimizin saflığının, təmizliyinin, milli dəyərlərimizin, adət və ənənələrimizin, milli dövlətçiliyimizin qorunması, xaricdə yaşayan azərbaycanlılarla siyasi, mədəni və iqtisadi əlaqələrin genişləndirilməsini əhatə edən siyasətdən ibarətdir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Bununla paralel olaraq mənəvi dəyərlərin qorunması siyasəti yürüdülür ki, onun da kökündə unudulmuş və məhv edilmək təhlükəsi qarşısında qalmış mənəvi dəyərlərin bərpası, İslam normalarının yerli ənənələr və milli xüsusiyyətlər nəzərə alınmaqla tətbiqi, dini normalardan milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində yararlanmaq durur. Məhz bu siyasətin nəticəsidir ki, azərbaycanlılar dünya birliyinə inteqrasiya prosesində milli kimliyini qoruyub saxlaya bilib.

O ki qaldı milli kimliyin formalaşması məsələsinə, bu proses bir sıra məqamlara əsaslanır. Bunlar milli kimliyin milli dövlətçilik ideologiyası üzərində qurulması və dövlətçiliyə xidmət etməsi, milli kimliyi formalaşdırarkən tarixi inkişafın nəzərə alınması, milli kimliyin milli və mənəvi dəyərlərin qorunması ilə müasir dövlət quruculuğunun sintezi və balanslaşdırılması üzərində qurulmasından ibarətdir. Milli şüur millətə, xalqa aid xüsusiyyətləri hər hansı bir fərdin özündə cəmləşdirmək bacarığıdır, insanın hisslərinin, duyğularının milli səviyyədə əxz olunmasıdır. Burada vicdan, milli mənlik kimi hisslər önəmli rol oynayır. Odur ki, gənclər arasında bu xüsusiyyətlərin formalaşdırılması nəticə etibarilə vətənpərvərlik hissinin inkişafına gətirib çıxarır. Dövlətin yüksəksəviyyəli diqqət və qayğısının fonunda mütəmadi olaraq inkişaf edən Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərin mənimsənilməsində, həm də təbliğində fəal iştirak edir. Biz 44 günlük Vətən müharibəsi dönəmində bunu daha dərindən hiss etdik. Belə ki, son 17 il ərzində gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi istiqamətində aparılan kompleks işlər bizə savaş meydanında son 200 ilin ən möhtəşəm qələbəsini bəxş etdi.

Müharibə dövründə minlərlə gənc könüllü olaraq ordu sıralarına yazıldı, orduda bir nəfər də olsun fərari olmadı. Hətta yaralı əsgərlərimiz belə döyüş meydanından çıxmır, son damla qanına qədər düşmənə qarşı döyüşməyi özünə şərəf bilirdi. Nəticədə Ermənistan vətənpərvər, cəsur və qorxmaz Azərbaycan gəncliyinin önündə diz çökərək məğlubiyyətə uğradı.

> *“Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi üçün mütəmadi olaraq işlər görülür*

■ **Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu bildirir ki, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi üçün mütəmadi olaraq işlər aparılmalıdır. Onun fikrincə, vətənpərvərlik, vətənin tərəqqisi ilə bağlı dəyərlər həmişə öndə olmalıdır:**

"Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi istiqamətində işlər aparmağa həmişə ehtiyac var. Ümumiyyətlə, vətənpərvərlik hisslərinin arzuedilən səviyyədə olması üçün 4 mühüm amilə ciddi fikir vermək lazımdır. Birincisi, insanların özlərinin fərdi, şəxsi, psixoloji xüsusiyyətləridir ki, bu cəhətdən xalqımızda yaxşı potensial var. Mədəniyyətimizdən, folklorumuzdan, adət-ənənələrimizdən irəli gələrək xalqımızın vətənpərvərlik hissləri həmişə güclü olub.

İkinci amil mühitdir. Mühit bu xüsusiyyəti ya inkişaf etdirə bilər, ya da əksinə, manea ola bilər. Təəssüf ki, indiki mühitdə arzu olunmayan problemlər çoxdur. Tərəqqimizə kömək edəcək vətənpərvərlik hisslərini yüksəltmək üçün xeyli dəyişikliklər etməyimizə ehtiyac var. Bakı elə bir şəhərdir ki, burada xatırlatma üçün lap qədim tariximizdən indiyə qədər gözəl heykəllər, arxtitektura nümunələri olmalıdır. Neçə illərdir xeyli təkliflər irəli sürülüb. Bakıya gələn adam hiss etməlidir ki, hansı tarixə malik ölkəyə gəlib. Bu sahədə problemlərimiz var. Bakıda vətənpərvərlik hissini sağlam istiqamətdə inkişaf etdirən belə monumental əsərlərə böyük ehtiyac var. Üçüncü amil isə informasiyanın məzmunu və intensivliyidir. Biz gənclərimizə, əhaliyə vətənini daha çox sevməsi üçün hansı məlumatı veririk? Deyək ki, azərbaycançılıq ideyasından danışırıq. Amma bunu, sadəcə olaraq, dekorativ danışırıq.

Adam azərbaycançı olması üçün, gərək, Azərbaycanın tarixini yaxşı bilsin. Orta əsr Azərbaycan mədəniyyəti dünyada ən nüfuzlu yer tuta bilən mədəniyyətdir. Nizami, Nəsimi, Füzuli, Tusi kimi xeyli insanlarımız var ki, orta əsrdə onlar dünyanın inkişafına yön veriblər. Ümumiyyətlə, bura Türk Dünyasının liderlərini də əlavə etsək, bu sahədə gənclərimizlə söhbət aparsan, görürsən ki, çoxu məlumatsızdır. Azərbaycanın tarixini yaxşı bilmədən necə azərbaycanlı olmaq olar? Sabah xaricə gedəndə tariximizi bilmədən ölkəmizi necə təbliğ edəcəklər?

Dördüncü amil üstünlük verilən dəyərlərdir. Vətənpərvərlik, vətənin tərəqqisi ilə bağlı dəyərlər gərək daha öndə olsun. Mədəniyyətimizlə bağlı dəyərlərə gərək daha çox üstünlük verək. Təəssüf ki, bu istiqamətdə arzuedilən işlər getmir. Müsbət tərəfi odur ki, xalqımızda vətənpərvərlik hissi güclüdür. 44 günlük Vətən Müharibəsində gənclərimizin özlərini fəda etmələri göz qabağında idi. Bütün dünya bunu alqışladı. Deməli, çox böyük potensialımız var. Bu potensialı inkişaf etdirmək üçün elmi əsaslarla fəaliyyət proqramları hazırlanmalı, bu istiqamətdə sistemli şəkildə işlər getməlidir".

■ **Mövzu ilə bağlı millət vəkili Müşfiq Cəfərov isə qeyd edir ki, milli mənlik şüurunun formalaşması üçün illər lazımdır: "Milli mənlik şüuruna malik olan gənclərin formalaşması üçün 2-3 il bəs etmir, bunun üçün illərə ehtiyac var.**

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik hisslərinin tərbiyəsi dövlətin və cəmiyyətin qarşısında duran böyük bir vəzifədir. Bütün dövrlərdə bu ali hissin yüksək səviyyədə tərbiyə edilməsi tələb olunur. Sağlam ruhlu gəncləri cəmiyyət yetişdirir, ictimaiyyət tərbiyə edir. Cəmiyyətdə nöqsan varsa, bu, istər-istəməz, gənclərin əxlaqına, onların vətənpərvərlik hisslərinin zədələnməsinə səbəb olur. Hər bir gənc mənsub olduğu ailənin, yaşadığı mühitin abhavasına uyğun böyüyüb tərbiyə alır. Azərbaycan gəncliyi öz vətənpərvərliyi, milli mənlik şüuruna sahib olması ilə həmişə sayılıb-seçilib. Hətta bu sahədə çox vaxt başqalarına nümunə olub.

Azərbaycanın dövlət müstəqilliyi qazanmasında gənclərimizin rolu az olmayıb. Milli Azadlıq Hərəkatında yüzlərlə gənc Azərbaycan Respublikasının SSRİ-nin tərkibindən çıxarılmasına çalışıb və bunun üçün meydanlara axışıb. Günlərlə, aylarla mitinqlər keçirib. Azərbaycan gəncliyi vətənpərvər ruhu ilə yanaşı, mübariz xarakterə də malikdir. Buna 44 günlük Vətən Müharibəsi zamanı da şahid olduq". Millət vəkili vurğulayır ki, gənclərdə milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsində ziyalılar, qələm sahibləri, sənətkarlarla yanaşı, pedaqoqların da roluna böyük ehtiyac var: "Hər bir insanın tərbiyəsi körpəlikdən formalaşmağa başlayır. İlk vətənpərvərlər məktəbdə yetişir. Azərbaycan məktəblərinin bir çoxu şəhid və Milli Qəhrəmanların adını daşıyır, bu təhsil ocaqlarında vətənpərvərlik tərbiyəsi çox güclü şəkildə təbliğ olunur.

> *"Gənclər bu dövlətin, xalqın gələcəyini quran, onun təəssübünü çəkən, yurdumuzun sərhədlərini qoruyan vətəndaşlarımızdır*

Cəmiyyətin aynası sayılan mətbuatın, xüsusən də televiziyaların bu sahədə görəcəyi işlər çoxdur. Gənclərin milli kökünə, vətənsevər, humanist bir insan kimi yetişdirilməsində müasir KİV-lərin böyük rolu ola bilər. Televiziyalar milli mənlik şüurunun təbliğatına daha çox yer ayırmalıdır. Bu mövzuda filmlər, proqramlar, intellekt oyunları, diskussiyalar keçirilməlidir ki, gənclər nəsə götürsün. Gənclər bu dövlətin, xalqın gələcəyini quran, onun təəssübünü çəkən, yurdumuzun sərhədlərini qoruyan vətəndaşlarımızdır. Onlar sağlam, qayğısız şəkildə yetişdirilməlidir. Cəmiyyətin bütün təbəqələri gənclərin milli-mənəvi və vətənpərvərlik ruhda yetişməsi üçün təbliğat işi aparmalıdır".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Parisi dərviş yox, Makron partladacaq

◂ əvvəli 1-ci səhifədə



Xəbərdə diqqət çəkilən ikinci məqaləda bildirilir ki, Fransa Ermənistanı yeni müharibəyə hazırlayır və Bakının milli təhlükəsizliyinə xələl gətirəcək casus şəbəkəsi yaratmağa çalışır. Bu faktlara nəzərə salanda aydın olur ki, Fransa Ermənistan məsələsində yeni "qapı" açmağa çalışır. Bundan əlavə, Fransanın Ukrayna-Rusiya müharibəsi ilə bağlı mövqeyi, Makronun açıqlamaları və Avropa İttifaqından tamamilə fərqli fikirləri də diqqətləri Parisə yönəldir. Digər tərəfdən, Ermənistan üzərindən qurulan istənilən oyun Türkiyəni də yaxından maraqlandırır. Mütəxəssis rəyləri əsasında hazırlanan məqalədə vurğulanır ki, Vətən müharibəsində məğlubiyyətdən sonra rəsmi Moskvadan dəstək görməyən İrəvan hökuməti Avropa İttifaqı və NATO-ya üz tutub. Burada da Fransa işə qarışaraq İrəvanın və Paşinyanın "müdafiəçisi" rolunu öz üzərinə götürüb, siyasi addımlarını da məhz bu istiqamətdə atmağa başlayıb. Məsələn, Fransanın xarici işlər naziri Katrin Kolonna İrəvana səfəri zamanı Ağrı dağının fotosunu paylaşıb "Ermənistana yenidən qayıtdım" yazaraq İrəvana hər cür hərbi yardımın edilə biləcəyini açıqlamışdı.

Məqalənin "Fransanın "qarnının ağrısı" Zəngəzur dəhlizidir" yarımbaşlığlı hissəsində Qarabağ Zəfərindən sonra imzalanan sazişin ən mühüm maddələrindən birinin də Azərbaycanla Naxçıvan arasında yeni nəqliyyat əlaqəsinin açılması olduğu qeyd edilir.

Müəllif bölgə üzrə mütəxəssis Türkiyənin Atatürk Universitetinin dosenti Savaş Eğilmezin bununla bağlı fikirlərinə də yer verib: "Fransanı narahat edən məhz Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizinin reallaşması ilə Türk dünyasının ticarət, logistika və siyasi əlaqələri gücləfnəcək. Zəngəzur həm Türk dünyasının, həm də bölgənin parlayan ulduzu olacaq". Eğilmezin fikrincə, regionda baş verən son proseslər onu göstərir ki, bəzi Qərb qüvvələri, o cümlədən Fransa Zəngəzur dəhlizinin açılmasının qarşısını almaq üçün irrasional fəaliyyətlə məşğuldur və aralarında terrorçuların da olduğu yaraqlıları regiona yerləşdirir, bölgə silahlandırılır.

Yazının "Ciddiyə alınmamaq kompleksi Makronu səhvə sürükləyir" hissəsində ekspert qeyd edib: "Fransada 600 mindən çox yaxşı təşkilatlanmış və təsir imkanları olan erməni var. Bunu gözardı etmək olmaz. Fransa və onun lideri Makron, əslində, "ciddiyə alınmamaq kompleksi" ilə Avropanın liderliyi üçün oynayır. Bunu o qədər həvəslə və təlaşla edir ki, bu da Fransa üçün ciddi səhvlərə gətirib çıxarır. Makron xüsusilə Türkiyə və Azərbaycanın üzərinə gələrək Afrikada itirdiyi nüfuzunu unutdurmağa çalışır. Üstəlik, o, "Ukraynaya əsgər göndərək" kimi qəribə ifadələri ilə həqiqətən də gülünc vəziyyətə düşür.

Məqalənin "Afrika və Qafqazın hesabını Türkiyəyə kəsmək istəyirlər" yarımbaşlığlı hissəsində isə vurğulanır ki, məsələ hər nə qədər Fransa-Ermənistan və təbii olaraq Azərbaycana təsir etsə də, bütün bu hadisələrin inkişafının Türkiyəyə təsirsiz ötüşəcəyini düşünmək mümkün deyil.

Ankaradan ümumi mənzərənin necə göründüyünə də toxunan ekspert Fransanın son dövrdəki siyasətində Türkiyə üçün ayrıca bir başlıq açmağın zəruri olduğunu vurğulayaraq deyib: "Hətta bu başlıqları iki alt başlığla bəzəyə bilərik: Afrikada Türkiyə və Qafqazda Türkiyə. Hər iki vəziyyət Fransanın yuxusunu qaçıracaq səviyyədə Türkiyənin xeyrinə inkişaf etməkdədir".

Eğilmezin sözlərinə görə, birbirinin ardınca Afrikadakı müstəmləkələrindən qovulan Fransa bunun əsas səbəbi kimi Türkiyəni görür.

Yazıya əlavə edilən infoqrafikada 2010-cu illərdən etibarən Fransa koloniyalarında mərkəzi hökumətə qarşı etirazların artması və bu bölgələrdə idarəetmə sisteminin dəyişməsinin Parisi qıtədən ayrılmaq məcburiyyəti qarşısında qoyması, onun müstəmləkələrdən geri çəkilməsi mərhələli şəkildə izah edilir.

✍ **Ləman Əliyeva**

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılır. Bu barədə Milli Məclisə qanun layihəsi daxil olub. Qanun layihəsi parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində müzakirə olunub və plenar iclasa tövsiyə edilib. İşçi qrupunun rəhbəri Cavanşir Feyziyev olacaq.

■ Cari ilin martında ilin ilk iki ayı və ötən ilin martı ilə müqayisədə Azərbaycanda "Instagram" sosial şəbəkəsinin bazar payı artıb. Ötən ilin martında "Instagram"ın Azərbaycandakı bazar payı 11.04%, cari ilin martında isə 11.74 % təşkil edib. Nəticədə "Instagram"ın ölkədə bazar payı 6.3 % artıb.

■ Türkiyədə illik inflyasiya mart ayında 68,5%-ə yüksəlib. Bu isə ötən aya nisbətən 1,43% çoxdur. Fevral ayında bu rəqəm 67,07% təşkil edib. Məlumata görə, mart ayında istehlak qiymətləri indeksi əvvəlki aya görə 3,16%, 2024-cü ilin əvvəli ilə müqayisədə isə 15,06% artıb.



■ "İran tərəfinə qətiyyətlə bəyan etmişik ki, İranın Dəməşqdəki Konsulluğuna hücumla əlaqəmiz yoxdur". Bunu Pentaqonun rəsmi nümayəndəsi Sabrina Sinqx ənənəvi brifinqdə bildirib. O bildirib ki, ölkəsinin rəsmi mövqeyi Tehrana diplomatik kanallar vasitəsilə çatdırılıb.

■ Qlobal bazarlar qışın isti keçməsi səbəbindən həddindən artıq qaz təchizatı ilə üzləşib. Bu barədə CNBC kanalı analitiklərə istinadən məlumat yayıb. "Qlobal təbii qaz qiymətləri ABŞ, Avropa və Şimali Asiya kimi Şimal Yarımkürə regionlarında mülayim qışa görə aşağı düşür", - "S&P Global" bazarlarının rəhbəri Zhi Xin Çonq (Zhi Xin Chong) deyib.

■ 2024-cü ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 45 ölkəsinə 3 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. 2024-cü ilin fevral ayında isə "Azərkosmos" dünyanın 41 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.



■ 2023-cü il üzrə qida zəhərlənmələrinin statistikası açıqlanıb. Qida Təhlükəsiliyi Agentliyindən bildirilib ki, 2023-cü ildə qida zəhərlənmələri ilə bağlı müraciət edənlərin say 763 nəfər olub. Onlardan 143-ü təsdiqini tapmış zəhərlənmə faktıdır.

■ "Neftçi" Azərbaycan kubokunun "Qarabağ"la yarımfinaldakı cavab oyununa itki ilə çıxacaq. Eddi İsrafilov səfər matçını buraxacaq. 32 yaşlı yarımmüdafiəçi cəzalı duruma düşüb. O, "Qarabağ"la evdəki ilk qarşılaşmada (0:4) sarı vərəqə alıb. Eddi 1/4 finalın "Sumqayıt"la səfər (3:2) matçında da sarı vərəqə aldığı üçün 2-ci xəbərdarlığa görə qarşıdakı oyunu buraxacaq.

# Türkiyənin gələcəyinə təhlükə yoxdur



Etibar Məmmədov,
Azərbaycan Milli İstiqlal Partiyasının fəxri lideri

**A*zərbaycan Milli İstiqlal Partiyasının fəxri lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə Türkiyədəki son bələdiyyə seçkilərində müxalifətin qələbəsi, aprelin 5-də Brüsseldə gözlənilən Avropa Birliyi və ABŞ nümayəndələrinin Ermənistanın baş naziri N.Paşinyanla üçtərəfli görüşü, son günlər Ermənistan ordusunun Naxçıvan istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə atəş açmasını, guya Amerikanın təşkil etməsi haqqında iddialar, ABŞ-nin son vaxtlar Ukraynaya genişmiqyaslı maliyyə dəstəyinin düyünə düşdüyü bir vaxtda Rusiyanın qəti qələbə çalacağı halda digər postsovet ölkələri, o cümlədən də Azərbaycanın gələcək taleyi və s. mövzuları müzakirə etməyə çalışdıq.***

## Müsahib

***- Türkiyədəki son bələdiyyə seçkilərində müxalifətin qələbəsini necə dəyərləndirirsiniz?***

- Türkiyədə müxalifətin yerli seçkilərdə qələbəsi gözlənilən bir şey idi. AKP-nin bu 20 illik hakimiyyəti artıq böhran mərhələsinə keçirdi. Yəni 2000-ci illərin əvvəlindəki komandadan, demək olar ki, heç kim qalmamışdı. Yenilər isə əvvəlki siyasətin davamını apara bilmədilər. Xüsusən iqtisadi sahədə... İqtisadi böhran, demək olar ki, hər şeyi həll etdi. Yəni xalqın iqtisadi vəziyyəti, sosial durumunun ağırlaşması siyasi proseslərə də birbaşa təsir göstərdi. Ona görə də xalq hakimiyyətin dəyişməsini, yenilənməsini lazım bildi...

***- CHP başda olmaqla, Türkiyə müxalifəti vaxtından əvvəl prezident və parlament seçkilərinin keçirilməsinə nail ola bilərmi?***

- Buna çətin nail ola bilərlər. Son qərarı parlament verir və parlament çoxluğu hazırda hakim AKP-nin əlindədir. Prezident seçkilərinin isə vaxtından əvvəl keçirilməsinin heç bir qanuni və məntiqi əsası yoxdur. Növbədənkənar prezident seçkiləri o zaman baş tutardı ki, parlament seçkiləri keçirilə, müxalifət çoxluq əldə edə və prezidentin işləməsi çətinləşərdi. İndiki durumda belə bir perspektiv görünmür. Bununla belə, Türkiyənin iri şəhərlərinin cümhuriyyətçilərin idarəçiliyinə keçməsinin özü hakim partiyaya böyük zərbədir...

Ümumi nəticə ondan ibarət oldu ki, əməkliлər, yəni pensiyaçılar Ərdoğanın məğlubiyyətinə səbəb oldular. Onların aldığı təqaüdlərin miqdarı aşağı səviyyəsində idi. Əməklilər də seçkilərdə səs verənlərin böyük bir hissəsini təşkil edirdi...

***- Müxalifətin bu qələbəsi Türkiyənin gələcəyi üçün nələr vəd edir?***

- Bu seçkilər bir daha göstərdi ki, Türkiyə demokratik dövlətdir və ölkədə seçkilər azad keçirilir. Pozuntular nə qədər olsa da, bu, ümumi nəticəyə təsir göstərmir, xalqın iradəsi özünü nümayiş etdirərək ortalıqda rəsmiləşə bilir. Bu, Türkiyənin bütün dünyada, xüsusən də müsəlman ölkələri arasında göstərdiyi böyük bir nümunədir. Bu mənada da Türkiyənin gələcəyinə heç bir təhlükə yoxdur...

***- Ərdoğanın AKP liderliyində varisi kimi bir çox şərhçilər hazırkı xarici işlər naziri, keçmiş MİT rəhbəri Hakan Fidanı görür. Siz necə düşünürsünüz?***

- Bunu hələ demək mümkün deyil. Son ana qədər AKP liderliyinə varisin kim olacağı bilinməyəcək. Kim olur-olsun, Ərdoğan səviyyəsində onu əvəz edə bilməyəcək. Ümumiyyətlə, bu seçkilər də, bundan öncəkilər də göstərdi ki, son illər Ərdoğanın kadr seçimi çox zəif oldu. O, hakimiyyətə partiyasındakı köhnə qvardiya ilə gəlmişdi. Həmin kadrların hamısı yetişmiş, sanballı siyasətçilər idi. Onlar bir müddət ölkəni idarə etdilər. Onların ardınca gələn kadrlar vəzifələrdə çalışdıqdan bir müddət sonra məlum oldu ki, əksəriyyəti uğursuzdur. Ərdoğan özü lider olsa da, böyük nəticələr əldə etsə də, hakimiyyətdə irəli sürdüyü kadrların uğursuzluğu göz qabağındadır...

***- Aprelin 5-də Brüsseldə gözlənilən Avropa Birliyi və ABŞ nümayəndələrinin Ermənistanın baş naziri N.Paşinyanla üçtərəfli görüşü doğrudanmı Azərbaycanın milli maraqları üçün problem yaradır?***

- Qərb dairələri onsuz da son vaxtlar Azərbaycan üçün problemlər yaradırlar və buna davam edirlər. Avropa Şurası Parlament Assambleyasının qərarları, eyni zamanda Avropanın ayrı-ayrı ölkə rəhbərliklərinin ölkəmiz əleyhinə bəyanatları, ümumilikdə bizə qarşı təzyiq siyasəti - bütün bunlar əlbəttə ki, Azərbaycan üçün təhlükə yaradır... O da var ki, Azərbaycanın mövqeyi haqlı olsa da, ancaq hələlik biz həmin mövqeyimizi dünya və ayrıca Avropa səviyyəsindəki ictimai rəyə yeridə bilməmişik. Təəssüf ki, bu sahədə üstünlük hələ də ermənilərin tərəfindədir. Yəni onlar öz yalan və saxtakarlıqlarını dünya ictimaiyyətinə qəbul etdirməyi bacarırlar. Avropa qurumlarının bir sıra bəyanatlarından da gördük ki, ermənilər absurd məsələləri real durum kimi qəbul etdirib Azərbaycanı ittiham edə bilirlər. Ona görə də Azərbaycanın xarici siyasət məmurları öz işlərini fəallaşdırmalıdırlar. Hesab edirəm ki, onların işləri qənaətbəxş deyil. Yəni birdənbirə Avropa qurumları qərarlar qəbul edən zaman Azərbaycanın mövqeyini müdafiə edən tapılmır. Bu da həmin sahədə xarici siyasət işinin ya olmamasının, ya da çox zəif olmasının nəticəsidir...

> *Bu seçkilər bir daha göstərdi ki, Türkiyə demokratik dövlətdir və ölkədə seçkilər azad keçirilir*

> *Hələlik Ağ Evin başı qarşıdakı prezident seçkilərinə qarışıb, ona görə də Cənubi Qafqazla bağlı ciddi təsiredici fəaliyyət göstərə bilməz*

> *Ukraynanın insan resursları Rusiyanınkı ilə müqayisə oluna bilməsə də, iqtisadi, maliyyə və hərbi texniki yardımlar artdıqca cəbhədə kəskin dönüş ola bilər*

***- Necə hesab edirsiniz, Qərb, Avropa, ABŞ Ermənistandan əlini çəksə və bölgədə əsas kənar güc kimi yalnız Rusiya qalsa, Kremlin və onun dəstəkçilərinin qeyd etdiyi kimi, Azərbaycanla Ermənistan arasındakı problemlər həllini tapacaq və aralarında sülh müqaviləsi imzalanacaqmı?***

- Azərbaycanla Ermənistan təkbətək qalsalar, bir çox məsələlər həllini tapar...

***- Təkbətək yox, yenə də Rusiyanın təsir dairəsində...***

- Hələ ki Rusiyanın mövqeyi Azərbaycanın əleyhinədir. Bunu deyil... Kremlin mövqeyi istənilən zaman yenidən bizim əleyhimizə dönə bilər. Necə ki, tarixboyu həmişə əleyhimizə olub. Ermənilər isə alət kimi istifadə edilmək üçün həmişə hazır olublar. Ona görə də Rusiya ilə onların mövqeləri yenidən uyğunlaşa bilər. Bugünkü vəziyyətdə Azərbaycanın xarici siyasətinin qarşısında duran vəzifə yeni müttəfiqliklər əldə etməkdən ibarətdir. Yəni yalnız Türkiyənin müttəfiqliyi ilə biz çox uzağa gedə bilmərik. Azərbaycanın mövqeyini müdafiə edən digər müttəfiqlərimiz də olmalıdır. Eyni zamanda təkcə ölkəmizin enerji resurslarına arxayınlaşmaq və Avropa ölkələrinin bizdən asılılığını əsas götürərək digər istiqamətlərdə fəaliyyətsiz dayanmaq ağır nəticələrə gətirib çıxara bilər. Konkret ABŞ-yə gəldikdə, hələlik Ağ Evin başı qarşıdakı prezident seçkilərinə qarışıb, ona görə də Cənubi Qafqazla bağlı ciddi təsiredici fəaliyyət göstərə bilməz. Gələcəkdə, qısa müddətdən sonra öz fəaliyyətini gücləndirə bilər. Odur ki, bütün bu təhlükələrin qarşısını almaq üçün müvafiq tədbirlər görülməlidir...

***- Qərbin bölgəyə təsiri olmadığı halda, Rusiya İrəvanda Paşinyan hakimiyyətinin devrilməsinə nail olacaq və yenə də özünə sadiq Köçəryan, Sərkisyan tipli revanşistlərin hakimiyyətini bərpa edəcək. O halda Ermənistan Moskvanın dəstəyi ilə yenə də Qarabağla bağlı iddialarını irəli sürəcək və nəticədə bir müddət sonra Azərbaycanla yeni genişmiqyaslı savaş başlayacaq. Siz necə düşünürsünüz?***

- Bütün variantlarda Azərbaycan hərbi üstünlüyünü təmin edib, sərhədlərini yüksək səviyyədə möhkəmləndirib və müdafiə sistemini qurub. Bu, böyük bir nəticədir. Ermənistanın yenidən toparlanması, öz ordusunu Azərbaycana hücum səviyyəsində hazırlaması üçün hələ illərlə vaxt lazımdır. Təxribatlar üçün həmişə imkan var və hər bir təxribat da nəticədə Azərbaycana qarşı ittihamlara gətirib çıxarır. Bunu həmişə nəzərə almaq lazımdır...

***- Söhbət ondan gedir ki, İrəvanda Moskvanın dəstəyi ilə revanşist qüvvələr hakimiyyətə gətirilsə, sözsüz ki, onlar yenidən Qarabağ iddiası ilə çıxış edəcək və yeni işğallar üçün cəhdlər göstərəcəklər. Rusiya da yeri gələndə Azərbaycana təzyiqlər göstərmək üçün onlardan istifadə edəcək...***

- Onlar belə iddialarla çıxış edəcək və cəhdlər göstərəcəklər. Bunu həmişə ediblər, bundan sonra da edəcəklər. Nə qədər ki, üstünlük bizdədir, hansısa rəsmi sənədlərin imzalanmasına nail olmalıyıq.

***- Bəzi ekspertlər iddia edir ki, son günlər Naxçıvan istiqamətində Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə atəş açmasını Amerika təşkil edib. Belə bir şey mümkündürmü?***

- Ermənistan heç vaxt özü heç nə etmir, kimsə nəyisə onun üçün təşkil edir. İstər Amerika, istər Fransa, istərsə də Rusiya olsun. Mümkündür, hər şey ola bilər...

***- Amerikadan söz düşmüşkən, ABŞ-nin son vaxtlar Ukraynaya genişmiqyaslı maliyyə dəstəyi düyünə düşüb və Ukraynanın həm hərbi, həm də siyasi rəhbərliyi açıq şəkildə bildirir ki, ciddi yardım bərpa olunmazsa, Rusiyanın savaşda qalib gəlmək ehtimalı çox böyükdür. Əgər belə olarsa, yəni Rusiya Ukraynanı tam şəkildə məğlub edib ələ keçirərsə, digər postsovet ölkələrinin, o cümlədən Azərbaycanın taleyi necə olacaq?***

- Əvvəla, bizim taleyimiz başqalarından asılı olmamalıdır, öncə özümüzdən asılı olmalıdır. Ukraynaya yardım da hazırda düyünə düşsə də, yaxın vaxtlarda bərpa olunacaq. Həmin yardım bərpa olunandan sonra müharibənin xarakteri daha da dəyişəcək. Frontal müharibə Rusiya üçün ən əlverişli bir vasitədir. Bu ölkə tarixboyu bütün savaşlarında canlı qüvvənin çoxluğu və həmin qüvvənin kütləvi itkilərini nəzərə almadan insan resurslarını döyüşlərə buraxmaq hesabına çox vaxt planlarına həyata keçirə biliblər. Hazırda Ukrayna cəbhəsində Rusiya ordusunun elə böyük bir irəliləyişi yoxdur. Eyni zamanda müharibənin xarakteri dəyişməkdədir.

Ukrayna, artıq uzaq məsafələrə uça bilən pilotsuz uçuş aparatlarıyla Rusiyanın dərinliklərində yerləşən enerji mərkəzlərinə və strateji hərbi zavodlarına zərbə vurmaq taktikasını seçib və buna da xeyli dərəcədə nail olur. Təbii ki, Ukraynanın insan resursları Rusiyanınkı ilə müqayisə oluna bilməsə də, iqtisadi, maliyyə və hərbi texniki yardımlar artdıqca cəbhədə kəskin dönüş ola bilər. Yəni Rusiya qısa müddətdə döyüş meydanında ciddi uğurlar əldə edə bilməsə, Ukraynanın xeyrinə olan bu dönüş baş verəcək. Hazırda Rusiya Xarkov və Odessanı işğal etmək üçün çalışır. Qara dənizə tam nəzarət etməkdən ötrü Odessa ruslar üçün çox vacib bir strateji məntəqədir. Mən də belə hesab edirəm, Rusiya bu şəhərlərin işğalına nail ola bilməyəcək və nəticədə savaş meydanında kəskin dönüş baş verəcək və Rusiyanı tükəndirmək siyasəti davam etdiriləcək...

*✍ Sultan Laçın*

# Ölkəmizdə əhalinin neçə faizi kirayədə yaşayır?

***Statistik məlumatlara görə, hazırda dünya əhalisinin, təxminən, 35-40 faizinin şəxsi mənzili yoxdur. Onlar kirayə mənzillərdə yaşayırlar. Dünyada ən çox Almaniya əhalisi yaşamaq üçün kirayə evlərə üstünlük verir. "World of Statistics"in araşdırmasına görə, Almaniya əhalisinin 50,9 faizi kirayə evlərdə yaşayır.***



## Cəmiyyət

Bu siyahıda Avstriya 45,8 faizlə ikinci, Danimarka 40,8 faizlə üçüncü, Fransa 35,3 faizlə dördüncü, İsveç 35,1 faizlə beşinci, Aİ 30,1 faizlə altıncı, İrlandiya 30,0 faizlə yeddinci, Niderland 29,9 faizlə səkkizinci, Finlandiya 29,7 faizlə doqquzuncu, Lüksemburq 28,9 faizlə onuncu yerdə qərarlaşıb. Məlumatlara görə, Almaniyanın bu siyahıda birinci yerdə qərarlaşmasına baxmayaraq, Ukrayna-Rusiya müharibəsindən sonra bu ölkəyə gələn ukraynalıların tələbi əlavə 200 min evə ehtiyac yaradıb. Oxşar mənzil böhranı Fransada da yaşanır. Kirayə xərcləri fransız ev təsərrüfatlarının aylıq xərclərinin böyük hissəsini təşkil edir. Paytaxt Paris kimi mərkəzi bölgələrdə mənzil qiymətlərinin artması mənzil axtaranları şəhər mərkəzlərindən uzaqlaşdırır və həmçinin kirayə ev tapmaq prosesini çətinləşdirib. Abbe Pierre Fondunun hesabatına görə, hazırda Fransada 4,15 milyon insan mənzil problemi ilə üzləşib və onlar çətin şəraitdə yaşayırlar. Maraqlıdır, görəsən, Azərbaycanda əhalinin neçə faizi kirayədə yaşayır?

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin tədqiqatlarına əsasən, Azərbaycan əhalisinin, təxminən, 95 faizi öz mənzillərində yaşayır. Dövlətə məxsus mənzillərdə əhalinin 4,2 faizi məskunlaşıb. Əhalinin təxminən 0,6 faizi isə kirayə mənzillərdə qalır. Əhalinin kənd yerlərində olan mənzillərinin sahəsi şəhərlərlə müqayisədə daha böyükdür. Şəhərlərdə bir nəfərə düşən mənzil sahəsi 16,5 kvadratmetr olduğu halda, kəndlərdə 21,6 kvadratmetrdir. Araşdırmalar göstərir ki, otaq sayına görə əhali daha çox üçotaqlı mənzillərdə yaşayır.

Əhalinin, təxminən, 40 faizi üçotaqlı, 26 faizi dördotaqlı, 18,3 faizi ikiotaqlı mənzillərdə məskunlaşıb. Beş və daha çox otağı olan mənzillərdə əhalinin 13,3 faizi, birotaqlı mənzillərdə 2,4 faizi yaşayır. Yeri gəlmişkən, əhali proqnozları əsasında aparılmış hesablamalara görə, 2040-cı ilədək təkcə Bakıda, təqribən, əlavə 142,82 min mənzilə tələbat yaranacaq. Bu, Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planında əksini tapıb. Baş planda əhalinin mənzil tələbatının ödənilməsi üçün təqribən 9 000 ha sahə nəzərdə tutulub. Bu ərazi isə təxminən 200,0 min mənzil deməkdir. Bu, 2027-ci ilədək yaranacaq 49,97 min, 2040-cı ilədək yaranacaq 92,85 min mənzil tələbatını ödəmək üçün kifayət edəcək.

Tədqiqatlar nəticəsində üzə çıxıb ki, əhalinin 66,5 faizi fərdi yaşayış evində məskunlaşıb. Çoxmərtəbəli mənzillərdə əhalinin 30 faizi, yataqxanada 1 faizi yaşayır. Qalanları isə digər yaşayış yerlərində məskunlaşa biliblər. Şəhər və kənd yerlərinin müqayisəsi göstərir ki, fərdi yaşayış evlərində məskunlaşma kənd yerlərində daha yüksəkdir. Kəndlərdə əhalinin 93 faizi fərdi evlərdə yaşayır. Şəhər yerlərində isə əhalinin 52 faizi çoxmərtəbəli binalarda olan mənzillərdə məskunlaşıblar.

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən "Azərbaycan Rieltorlar Assosiasiyası" İctimai Birliyinin icraçı direktörü, daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadov deyir ki, hazırda ümumi yaşayış fondumuzun, təxminən, 17-18 faizini kirayə mənzil fondun təşkil edir:** "Mövcud rəqəmə toxunsaq, ölkədə çox böyük həcmdə mənzillər kirayə verilir. Xüsusilə də böyük şəhərlərdə kirayə mənzil fondu daha böyükdür. Kirayə fondunun, təxminən, 95 faizi qanunsuzdur, buna "kölgə iqtisadiyyatı" deyirlər. Kirayə evlərə mənbədən tutulan vergi təyin olunur ki, bu da 14 faizdir. Bir çox vətəndaş onu ödəməkdən yayınır. Yayınma səbəbi də 100 manat kirayə haqqına 14 manat verginin tətbiq olunmasıdır. Əgər bütün ölkədə kirayə verilən mənzillərin sayını götürüb, bunların qiymətinin 14 faizini hesablasaq, çox böyük itki görəcəyik. Bilirsiniz ki, İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın üzvüyəm. Bu məsələylə bağlı bizim Dövlət Vergi Xidməti ilə görüşümüz olub, təklif eləmişdim ki, bu sahəyə tətbiq olunan vergi azaldılsın və nəzarət mexanizmi gücləndirilsin. Şəxslər mənzilləri müqavilə əsasında kirayə götürsünlər, çünki əks halda hüquqları çox tapdalanır - ev sahibləri çox vaxt əsassız şəkildə onları evdən çıxarır, qiyməti qaldırırlar, bunun qarşısı alınmalıdır.

> *Mövcud rəqəmə toxunsaq, ölkədə çox böyük həcmdə mənzillər kirayə verilir*

> *Ümumi kirayəyə verilən mənzillərin, təxminən, 30-40 faizi 200-400 manat arası ucuz mənzillərdir*

Digər tərəfdən, əmlak sahibləri də müxtəlif problemlərlə üzləşirlər. Kirayədə yaşayan şəxslər pulu vaxtında ödəmir, evin təmirini korlayırlar, oğurluq hadisələri olur və s. Neqativ hallar çox olduğuna görə onların aradan qaldırılması ilə bağlı nəzarət mexanizmi gücləndirilməli və müqavilələr tətbiq olunmalıdır. Bu, dövlətə də xeyirdir".

**■ Məsələyə münasibət bildirən daşınmaz əmlak sektoru üzrə ekspert Elnur Fərzəliyev deyib ki, Azərbaycanda əhalinin neçə faizinin kirayədə yaşadığını konkret söyləmək çətindir. Onun sözlərinə görə, kirayə mənzil bazarı əsasən iri şəhərləri əhatə edir:** "Bunun da müxtəlif səbəbləri var. Məsələn, götürək paytaxt Bakını. Bakıda kirayə yaşayan kimlərdir? Təbii ki, daha çox iş və təhsil üçün paytaxta üz tutan insanlar kirayə mənzillərdə məskunlaşırlar. Hər il nə qədər tələbənin kirayə mənzildə yaşaması barədə dəqiq rəqəm yoxdur.

Qanunla kirayə verilən mənzillər üçün notarial qaydada müqavilə bağlanmalıdır. Bu zaman mənzil sahibi həmin evdən aldığı kirayə haqqına görə 14 faiz vergi ödəməlidir. Vergi çox olduğundan və bu istiqamətdə maarifləndirmə aparılmadığına görə insanlar rəsmi müqavilədən yayınırlar. Müqavilə olanda bilinir ki, tutalım, bu il 10 min kirayə mənzil verilib. Bu dönəmdə 10 min kirayə müqaviləsinin 2 mini dondurulursa, nə qədər evdə tələbənin qaldığını təxmini bilmək olur". Ekspertin sözlərinə görə, ümumi kirayəyə verilən mənzillərin təxminən 30-40 faizi 200-400 manat arası ucuz mənzillərdir: "Bu mənzillərdə yaşayanların 50 faizi həmişə tələbələr olub. Bir zamanlar Bakının bir sıra yerində ali təhsil müəssisələrinin yataqxanaları vardı. Lakin Birinci Qarabağ müharibəsindən sonra məcburi köçkünlərin bir hissəsi həmin yataqxanalara sığındılar. Onların böyük əksəriyyəti dövlət tərəfindən evlə təmin olundu. Həmçinin işğal altında olan torpaqlarımız azad olundu ki, orada da tikinti-bərpa işləri aparılır və məcburi köçkünlər mərhələli şəkildə öz yurd-yuvalarına köçürülür".

Ekspertin sözlərinə görə, həmin yataqxanalar artıq yaşayış üçün yararlı deyil və oraya tələbələrin yerləşdirilməsi mümkün deyil: "Lakin onların hər birinin böyük həyətyanı sahələri var. Düşünürəm ki, həmin torpaq sahələrində yeni, müasir tipli və hündür mərtəbəli tələbə yataqxanaları inşa olunarsa, tələbələrin böyük hissəsinin ev problemi həll olmuş olar. Məsələn, tələbələr 15 mərtəbəli yataqxanalara köçürülərsə, onların bir qismi bahalı kirayə mənzil problemindən yaxa qurtarar".

*✍ Sevinc*

# "Yaşıl enerji" potensialımız

***Bu** gün planetin enerjiyə olan tələbatının ətraf mühitə zərər vurmadan ödənilməsi ən aktual məsələlərdəndir. Hazırda dünya ölkələri Yer kürəsində ekoloji tarazlığı bərpa etmək üçün karbon emissiyalarının azaldılmasına qarşı mübarizə aparırlar. Dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəfləri isə "yaşıl enerji" keçidini sürətləndirməkdədir. "Yaşıl enerji" istehsalı ekoloji fəsadlar yaradan karbon emissiyasının minimuma endirilməsi, ekoloji çirklənmənin qarşısının alınması və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.*



## Təhlil

Qeyd edək ki, bərpa olunan və ya "yaşıl enerji" dedikdə, tükənməz olan mənbələrdən alınan enerji başa düşülür. Bərpa olunan enerjidən istifadənin əsas prinsipi onu texniki istifadəyə verməkdir. Bərpa olunan enerji təbii ehtiyatlardan əldə edilir - günəş işığı, külək, yağış və s. Neft, təbii qaz, kömür və uran filizi kimi yanacaqlardan fərqli olaraq, bu enerji mənbələri tükənmir. Buna görə də onları bərpa olunan enerji mənbələri adlandırırlar.

Mütəxəssislərin proqnozlarına əsasən, 2030-cu ilədək bərpaolunan mənbələrdən və yaxud "yaşıl enerji"dən alınan elektrik enerjisi dünyada elektrik enerjisi istehsalının 65 faizini təmin edəcək. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin hesablamalarına görə, 2050-ci ilədək dünyada elektrik enerjisinin 90 faizi bərpaolunan və yaxud "yaşıl enerji" mənbələrindən əldə edilə bilər. Karbon qazı emissiyası qlobal səviyyədə 2050-ci ilə qədər 70 faiz azaldılacaq ki, bu da iqlim dəyişikliyinin qarşısının alınmasına kömək edəcək.

Proqnozlara görə, ilk növbədə külək və günəş enerjisi hesabına elektrik enerjisi istehsalında sürətli artım olacaq. Bunun əsasən Qafqazda, Mərkəzi Asiyada, Şərqi və Cənub-Şərqi Avropada baş verəcəyi bildirilir. Məlumat üçün qeyd edək ki, su elektrik enerjisi dünyada enerji istehlakının 3 faizini və elektrik enerjisi istehsalının 15 faizini təmin edən ən böyük bərpa olunan enerji mənbəyidir. Külək enerjisindən isə Avropa və ABŞ-da geniş şəkildə istifadə olunur. Lakin ümumilikdə götürsək, bərpa olunan enerjinin inkişafına investisiya qoyan ölkələr arasında Çin, ABŞ, Yaponiya və Böyük Britaniya liderlik etməkdədir.

"Yaşıl enerji"yə keçid Azərbaycan dövlətinin enerji siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Ölkənin enerji balansında "yaşıl enerji" mənbələrindən əldə edilən enerjinin payının getdikcə artırılmasına nail olmaq enerji sektorunda aparılan islahatların əsas məqsədlərindəndir. Azərbaycan "yaşıl enerji" sahəsində beynəlxalq təşkilatlar, müxtəlif ölkələr və sərmayədarlarla fəal əməkdaşlıq edir. Məsələn, 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Bu sənədə əsasən, Xəzər dənizində istehsal olunacaq "yaşıl enerji"nin Avropaya ixracı nəzərdə tutulur.

"Yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycan dövlətinin enerji siyasətində əsas istiqamətlərdən biridir. Azərbaycan 2030-cu ilədək 5000 meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırır. 2023-cü ildə Azərbaycanda Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş elektrik stansiyası istifadəyə verilmiş və bu cür yeni stansiyaların tikintisi davam edir. Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq "yaşıl enerji" elektrik kabelinin inşası istiqamətində mühüm işlər görülür. Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda135 QVt, dənizdə 157 QVt təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmindədir.

> *"Azərbaycanda ixrac baxımından infrastruktur da mövcuddur*

Azərbaycanda bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi məqsədilə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə Azərbaycanda bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb və müvafiq tədbirlər həyata keçirilir.

Artıq Qarabağ və Şərqi Zəngəzur, həmçinin Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan olunub. Bu ərazilər yüksək potensiallı "yaşıl enerji" mənbələrinə malikdir. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Tərtərçay və Həkəri çayı kimi çayların qollarında böyük hidroenerji imkanları mövcuddur. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında texniki potensialı 7200 MVt-dan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şərait var. İlkin proqnozlara görə Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisi 2000 MVt həcmində texniki potensiala malikdir. Kəlbəcər və Şuşa rayonlarında geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları mövcuddur. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bioenerji kimi bərpaolunan enerji potensialı da mövcuddur.

■ **Mövzu ilə bağlı iqtisadçı ekspert Rəşad Həsənov da bildirib ki, Azərbaycanın "yaşıl enerji"ni xaricə ixrac etmək üçün potensialı var: "Bunu müxtəlif qiymətləndirmələr də təsdiqləyir. Məsələn, Xəzərətrafı, Abşeron yarımadasında külək enerjisi potensialı var.**

Eyni zamanda günəş enerjisi imkanları həm quruda həm də Xəzər dənizi üzərində yeni texnologiyaların tətbiqi ilə maksimum səviyyədə enerji istehsal etmə potensialı var. Bundan başqa, işğaldan azad edilən ərazilərdə də günəş və bərpa olunan enerji resursları potensialı var. Həmin ərazilərin yaşıl enerji əraziləri kimi inkişaf etdirilməsi əsas strateji hədəf kimi nəzərdə tutulur. Eyni zamanda bu istiqamətdə böyük investisiyalara ehtiyac var. Son dövrlərdə xarici investorları ilə birgə bərpaolunan enerji layihələri həyata keçirməyə başlayıb.

Azərbaycan karbohidrogen resursları ilə zəngindir. İndiki şərtlər daxilində ölkəmizin görə biləcəyi enerji səmərəliliyi istiqamətində layihələrdir. Bu özü də kifayət qədər cəlbedici yanaşmadır və qənaətə imkan yaradır ki, bərpaolunan mənbələr hesabına istehsal olunan enerji ixrac üçün imkanlar yaratsın".

Ekspert vurğulayıb ki, Azərbaycanda ixrac baxımından infrastruktur da mövcuddur: "Elektrik enerjisi əsasən ölkəmizdən Gürcüstana ixrac olunur. Əgər iqlim dəyişiklikləri məsələləri qlobal sövdələşmə qüvvəsindən düşməzsə, Azərbaycan bu prosesə investor cəlb edərək öz yaşıl enerjisini Avropa bazarlarına çıxara bilər. Çünki enerji layihələrinin uğurla icrası baxımından Azərbaycan daha potensiallı görünür. Hökumətin bu istiqamətdə səyləri daha ciddi nəticələrə gətirib çıxaracaq".

✍ ***Müşfiq***

## Qərar

***A**zərbaycanda ən çox rast gəlinən problemlərdən biri boşanma zamanı əmlak bölgüsü üzrə mübahisələrdir. Bəzən bu mübahisələr üzrə məhkəmə çəkişmələri aylarla, hətta illərlə davam edə bilir. Yeri gəlmişkən, bu yaxınlarda Ali Məhkəmədə ər və arvadın ümumi əmlakının bölünməsi ilə bağlı Plenum qərarı qəbul edilib.*




# Nikah müqaviləsi vacibdir

Qərarda maraqlı məqamlardan biri nikahı pozulan cütlüyün evlilik müddətində lotereya və mərc oyunlarında qazandıqları gəlirlə bağlıdır. Məsələn, əgər ər birgə yaşayış vaxtı hər hansı lotareya, mərc və ya intellektual oyunda gəlir əldə edibsə, artıq həmin gəlir də ailənin ümumi əmlakı hesab ediləcək. Qayda ondan ibarətdir ki, sözügedən oyunlarda iştirak üçün verilən vəsait ər-arvadın ümumi əmlakından xərclənir. Bununla da gələcəkdə boşanma işlərində tərəflər bu məsələni də müzakirəyə çıxara bilərlər.



**Əkrəm Həsənov,**
vəkil

Bundan əlavə, digər məsələ ər-arvadın birgə nikah dövründə ipoteka krediti ilə alınan əmlakı ilə bağlıdır. Qərara əsasən, sözügedən əmlak ümumi hesab edildiyi kimi bankdan götürülən kredit də ər-arvadın birgə öhdəliyi sayılır. Yəni nikah pozulsa belə, krediti hər iki tərəf ödəməlidir.

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən vəkil Əkrəm Həsənov bildirib ki, yeni qərar boşanma zamanı əmlak bölgüsü ilə bağlı yaranan mübahisələrə son qoya bilər: "Əksər boşanma proseslərində demək olar ki, əmlak bölgüsü üzrə mübahisələrə rast gəlinir.** Mövcud qanunvericiliyə görə, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah müqaviləsində və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir. Nikaha girənədək ər-arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak onun mülkiyyətidir. Daş-qaş və digər zinət şeyləri istisna olmaqla, fərdi istifadədə olan əmlak nikah dövründə ərlə arvadın ümumi vəsaiti hesabına əldə edilmiş olsa da, ondan istifadə etmiş arvadın və ya ərin mülkiyyəti sayılır. Əgər nikah müqaviləsində və ya ərlə arvadın razılaşmasında ayrı qayda nəzərdə tutulubsa, bu qayda tətbiq edilmir. Biz məhkəmə prosesində demək olar ki, çox vaxt birgə nikah dövründə əldə edilmiş əmlakların bölüşdürülməsi mübahisəsi ilə rastlaşırdıq. Tutaq ki, ailə birgə nikah dövründə 20 illik ipoteka ilə 100 min manat dəyərində mənzil alıb və həmin mənzilin cəmi 5 ilinin ödənişi edilib. Həm ər, həm də arvad məhkəmə prosesində həmin əmlakdan pay istəyir. Bu halda məhkəmənin hansı qərar qəbul edəcəyi suallar yaradırdı. Məhkəmə bəzən qadının, bəzən kişinin xeyrinə qərar çıxarırdı ki, bu da mübahisəni daha da dərinləşdirirdi. Bu baxımdan Ali Məhkəmənin Plenum qərarı olduqca böyük əhəmiyyət kəsb edir. Yəni, artıq ər-arvadın birgə nikah dövründə ipoteka krediti ilə alınan ümumi əmlak sayılır. Qərara əsasən, sözügedən əmlak ümumi hesab edildiyi kimi bankdan götürülən kredit də ər-arvadın birgə öhdəliyi sayılır. Yəni nikah pozulsa belə, krediti hər iki tərəf ödəməlidir".

> *"Gələcəkdə mübahisə doğuracaq hallarla qarşılaşmamaq üçün ailə quran və ya ailə qurmağa hazırlaşan şəxslər nikah müqaviləsi bağlamalıdır*

Vəkil bununla yanaşı tövsiyə edib ki, gələcəkdə mübahisə doğuracaq hallarla qarşılaşmamaq üçün ailə quran və ya ailə qurmağa hazırlaşan şəxslər nikah müqaviləsi bağlamalıdır: "Düzdür, bizim cəmiyyətdə bu məsələyə birmənalı yanaşılmır. Amma bu müqaviləni həm birgə nikah dövründə, həm də nikaha daxil olan zaman bağlamaq olar.

Həmin sənəd ər və arvad arasında olan əmlakın idarə olunması, əmlaka dair sərəncam verilməsi, istifadə və yaxud sahiblik edilməsinə dair və gələcəkdə əldə edilən əmlakla bağlı olan bir müqavilə tipidir. Sənəd müqavilə azadlığından irəli gələrək hər hansı formada mütləq deyil. Tərəflərin iradəsinə uyğun olaraq cütlüklər arasında nikaha daxil olanda və nikah dövründə imzalana bilər. Bu müqavilə qanunda olan boşluqlardan istifadə hallarının da qarşısını alır".

✍ ***Rəna***



■ **Avropa İttifaqının Ermənistandakı missiyası əslində NATO missiyasına çevrilir. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. "Qərb aktuallığını nümayiş etdirmək üçün anti-Rusiya isteriyasını qızışdırır, Rusiya ilə hərbi münaqişəyə hazırlaşmağa çağırır, Ermənistanı hərbi sənaye kompleksinə sərmayə qoymağa çağırır", - Rusiya XİN sözçüsü vurğulayıb.**

"Ermənistanın özünü Avropanın sözdə demokratik dəyərlərinə malik ölkəsi kimi təqdim etməsi yersizdir", Zaxarova bildirib. "Ermənistanın yaratdığı obraza Avropanın özündə belə ciddi yanaşmırlar. Vaxtilə ABŞ-nin dövlət katibinin müavini olmuş Viktoriya Nuland Avropaya layiq olduğu yeri göstərmişdi.



■ **NATO Baş katibi Yens Stoltenberq Ukraynada döyüş meydanında vəziyyətin ciddi olduğunu deyib. O deyib ki, Ukraynaya uzunmüddətli yardımla bağlı müzakirələrdə yekun qərarın XİN rəhbərlərinin bu gün və sabah keçiriləcək iclasında veriləcəyi gözlənilmir.**

"Ümid edirəm ki, biz bu məsələ ilə bağlı konsensus istiqamətində irəliləyiş əldə edə biləcək və Vaşinqton sammitinə qədər razılaşmaya nail ola biləcəyik. Bunun səbəbi isə Ukraynada döyüş meydanındakı vəziyyətdir. Vəziyyət ciddidir, biz Rusiyanın necə təzyiq göstərdiyini görürük. Biz görürük ki, onlar bu müharibədə bizim kənara çəkilməyimizi gözləyərək, necə qazanmağa çalışır.



■ **2024-cü ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ümumi ixracı 4,8 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 455 milyon ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-fevral ayları ərzində yeyinti məhsulları üzrə ixrac 137,1 milyon ABŞ dollarına bərabər olub.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın mart sayına əsasən, 2024-cü ilin ilk 2 ayı ərzində qara metalların ixracı 46,4%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 29,7%, pambıq ixracı 29,3%, meyvə-tərəvəz ixracı isə 24,6% artıb. 2024-cü ilin yanvar-fevral ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9% artaraq 145,9 milyon ABŞ dolları təşkil edib.



■ **"Ukrayna prezidentliyinə namizədliyimi növbəti dəfə irəli sürəcəyəm". Bunu ölkənin keçmiş rəhbəri Petro Poroşenko "Al-Jazeera" telekanalına deyib. Bununla belə o bildirib ki, müharibə şəraitində seçkinin keçirilməsi mümkünsüzdür:**

"Bunun üçün əvvəlcə hərbi əməliyyatlar başa çatmalıdır. Səsvermənin tarixi məhz bundan sonra elan edilə bilər. Əgər ölkəmizi Avropa İttifaqına üzv qəbul etsələr, mən mütləq şəkildə Avroparlamentin üzvlüyünə namizəd olacağam". Petro Poroşenko ölkəsinin müharibədə məğlub olduğu ilə bağlı fikirləri rədd edib. O bildirib ki, Rusiya prezidentinin məqsədi Ukraynanı yer üzündən silməkdir: "Müharibə ssenarisi əvvəlcədən bəlli olan filmə bənzəmir.



■ **2024-cü ilin yanvar-fevral ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (34,9 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (33,5 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (30 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.**

2024-cü ilin yanvar-fevral ayları ərzində Rusiya Federasiyasına 154,4 milyon ABŞ dolları, Türkiyəyə 97,3 milyon ABŞ dolları, Gürcüstana 42,9 milyon ABŞ dolları, Ukraynaya 18,2 milyon ABŞ dolları, Qırğızıstana isə 18,2 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Cari ilin fevral ayının qeyri-neft ixracı 233 milyon ABŞ dolları olub. Yeyinti məhsulları üzrə ixrac 25% artımla 66,7 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 166,3 milyon ABŞ dolları təşkil edib.



■ **Xaricdə təhsil alanların diplomlarının tanınması ilə bağlı mart ayı üzrə 313 müraciətçinin 255-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 58 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyindən xəbər verilib.**

Bildirilib ki, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 38, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 11, dövlət nümunəli olmayan diplom üzrə 6, ekvivalenti olmayan ixtisas üzrə 2, təhsil forması üzrə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

# Kişilər yox, qadınlar...

***"Bütün əhalinin təqaüd yaşına nəzər yetirmək lazımdır. Veteranlar bizə məktub yazır ki, dövlət bizim təqaüd yaşımıza yenidən baxsın. Heç olmasa, onların təqaüd yaşlarını 62-ə salmaq olar". Bu fikirləri parlamentdə Milli Məclisin deputatı Sabir Rüstəmxanlı səsləndirib. O, həmçinin bildirib ki, qadınların təqaüdünə də baxmaq lazımdır: "Bu yaş həddi Azərbaycan üçün çox böyük rəqəmdir. Deyirlər ki, Azərbaycan uzunömürlülər məskənidir, amma bu deyim artıq nağıllarda qalıb".***



## Sosial

Qeyd edək ki, ölkədə pensiya yaşının azaldılması, xüsusilə də qadınların pensiya yaşına yenidən baxılması mütəmadi olaraq müzakirə olunur. Ötən il məsələ Ombudsman Aparatının məruzəsində də gündəmə gətirilmişdi. Məruzədə qadınların pensiya yaşının azaldılması, xüsusilə 63 yaş müəyyənləşdirilməsi ilə bağlı "Əmək pensiyaları haqqında" qanuna müvafiq dəyişikliklərin edilməsi təklif olunurdu. Amma aidiyyəti qurumlar bu təklifə müsbət yanaşmadılar.

Məlumat üçün bildirək ki, "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə əsasən, kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılaraq aşağıdakı qaydada müəyyənləşdirilir:

**Dövr Kişilər üzrə pensiya yaşı - Qadınlar üzrə pensiya yaşı**

**1 iyul 2017 - 30 iyun 2018 - 63 il 6 ay - 60 il 6 ay**

**1 iyul 2018 - 30 iyun 2019 - 64 il - 61 il**

**1 iyul 2019 - 30 iyun 2020 - 64 il 6 ay - 61 il 6 ay**

**1 iyul 2020 - 30 iyun 2021 - 65 il - 62 il**

**1 iyul 2021 - 30 iyun 2022 - 65 il - 62 il 6 ay**

**1 iyul 2022 - 30 iyun 2023 - 65 il - 63 il**

**1 iyul 2023 - 30 iyun 2024 - 65 il - 63 il 6 ay**

**1 iyul 2024 - 30 iyun 2025 - 65 il - 64 il**

**1 iyul 2025 - 30 iyun 2026 - 65 il - 64 il 6 ay**

**1 iyul 2026 və sonra 65 il - 65 il**

Bu il yanvarın 1-i vəziyyətinə görə, Dövlət Sosial Müdafiə Fondunda 1096,0 min (ötən ilin yanvarın 1-i vəziyyətinə 1114,2 min) pensiyaçı qeydiyyatdadır. Bu da ölkə əhalisinin 10,8 faizini təşkil edir. Onların 64,0 faizi yaşa, 23,6 faizi əlilliyə, 12,4 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Bəs, görəsən, qadınların pensiya yaşının azaldılmasına əngəl olan səbəblər hansılardır? Ümumiyyətlə, Azərbaycanda pensiya yaşının aşağı salınması nə dərəcədə realdır?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı ekspert Pərviz Heydərov bildirib ki, hazırda qadınların pensiya yaşı 63 il 6 aydır. O hesab edir ki, bu yaş həddinin azaldılması ətrafında müzakirə aparılarsa, məsələyə yenidən baxmaq olar:** "Əslində, qadınların pensiya yaşı kişilərdən az təşkil etməlidir. Pensiya yaşı müəyyən edilərkən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) imkanları nəzərə alınır. Eyni zamanda vətəndaşların əmək fəaliyyəti dövründə ödədikləri sosial sığorta haqları, onların pensiya kapıtalı, iş stajları və sair də nəzərdən keçirilir. Yəni dövlət bütün vətəndaşlara pensiyanı öz büdcəsindən ödəyə bilmir. Bu məqsədlə vətəndaş çalışdığı dövrdə sosial sığorta haqqı deyilən vergini ödəməklə özünə pensiya kapitalı yığır. Bu da elə təşkil olunmalıdır ki, vətəndaşın vaxtilə ödədiyi sığorta haqları onun pensiya məbləğinə kifayət etsin, eyni zamanda, bu və ya digər çatışmazlıq olanda DSMF-nin büdcəsindən əlavə dotasiya ayırmaq mümkün olsun. Hazırkı yaş həddi bu məsələlər nəzərə alınaraq müəyyən olunub.

> "
>
> *Hazırkı gedişat onu deməyə əsas verir ki, kişilərin olmasa da, qadınların pensiyaya çıxmaq hüququnu 60 yaşda əldə etməsinə şərait yaratmaq mümkündür*
>
> *Bir sıra inkişaf etmiş ölkələrdə qadınlar daha tez pensiyaya çıxırlar*

Son illər DSMF-nin dövlət büdcəsindən asılılığı tədricən azalıb. Bu müsbət göstərici yığımlarla bağlıdır. 2019-cu ildə yığımlar DSMF-dən alıb İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə verdilər. Bundan əlavə, Vergi Məcəlləsinə edilən dəyişikliklə sosial sığorta haqlarının faizi artırıldı. Daha sonra vergi orqanları tərəfindən vergi ödəyicisinin işçiləri əmək müqaviləsiz işə cəlb edilməsi faktları aşkarlandı. Bütün bu tədbirlər nəticəsində DSMF-nin dövlət büdcəsindən asılılığı azaldı".

Ekspert vurğulayıb ki, qadınların 55-60 yaşda pensiyaya çıxmaq hüququnun təmin edilməsini hər kəs arzulayır: "Lakin reallıq başqadır. Bu məsələyə ölçü ilə yanaşmaq lazımdır. İşin maliyyə tərəfini düşünsək, pensiya ödənişləri üçün tələb olunan vəsaitin haradan, necə əldə olunacağına nəzər salınmalıdır. Pafoslu çıxışlarla heç nəyə nail olmaq olmaz. Hazırkı gedişat onu deməyə əsas verir ki, kişilərin olmasa da, qadınların pensiyaya çıxmaq hüququnu 60 yaşda əldə etməsinə şərait yaratmaq mümkündür. Amma bu, indi real görünməsə də, yaxın gələcəkdə mümkündür. Dövlət də istəyər ki, vətəndaşı ondan razı qalsın, işdən çıxdıqdan sonra yüksək səviyyədə pensiya alsın, əhalisinin vaxtından əvvəl pensiyaya çıxmaq istəyini reallaşdıra bilsin. Bunun üçün müvafiq şərtlərin təmin olunması lazımdır. İlkin şərt odur ki, gərək vətəndaşların əmək haqları yüksək olmalıdır ki, onlar sosial sığorta haqlarını eyni səviyyədə ödəyə bilsinlər. Bundan əlavə, DSMF-nun maliyyə imkanları geniş olmalıdır, ölkədə özəl pensiya fondları fəaliyyət göstərməlidir. Hər bir vətəndaş istənilən məbləğdə pensiya kapitalı yığdıqdan sonra qanunvericiliklə müəyyən olunmuş istənilən yaşda pensiyaya çıxmaq hüququnu da təmin edə bilər. Amma indiki şəraitdə bu, tezdir".

■ **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyir ki, qadınların pensiya yaşının azaldılması son dövrlərdə müzakirə olunan məsələlərdəndir və Milli Məclisdə də onların fərqləndirilməsi məsələsi qaldırılıb:**

"Bir sıra inkişaf etmiş ölkələrdə qadınlar daha tez pensiyaya çıxır. Bu da birbaşa onunla bağlıdır ki, qadınların pensiya yaşında daha çox sosial təminata ehtiyac olur. Nəzərə almaq lazımdır ki, qadınlar sosial baxımdan dəstəyə daha çox ehtiyacı olan vətəndaşlarımızdır. Xüsusilə pensiya yaşında onların sosial təminatının gücləndirilməsi daha prioritetdir.

Qadınlar və kişilər arasında pensiya yaşında fərqlər bir sıra ölkələrdə də var. Məsələn Avstriyada kişilər üçün pensiya yaşı 65 olsa da, qadınlar üçün 60-dır. Uyğun olaraq Macarıstanda 64.5 və 62, İsveçrədə 65 və 64, Xorvatiyada 65 və 62.5 və s. Odur ki, Azərbaycanda da oxşar qaydanın tətbiqi məqsədəuyğun olardı. Bu baxımdan, maliyyə yükünə uyğun olaraq bu istiqamətdə islahatlar davam etdirilməlidir. Bu təklifin maliyyə əsaslandırılması hazırlandıqdan sonra konkret müzakirələrin davam etdirilməsi mümkündür".

✍ ***Sevinc***

# Sosial yardımın verilməsi hansı halda dayandırılır?

**Baş Prokurorluq sosial yardımın hansı halda dayandırılması ilə bağlı məsələyə aydınqlı gətirib. Trend həmin qaydaları təqdim edir:**



"Qanunla müəyyən olunmuş müvafiq qurumların informasiya ehtiyatlarından və sistemlərindən əldə olunan məlumatlar (Azərbaycan Respublikasının Prezidentinin təsis etdiyi təqaüdlərin, sosial müavinətlərin məbləğinin, əmək pensiyasının minimum məbləğinin və minimum aylıq əmək haqqının məbləğinin artırılması, əmək pensiyalarının indeksləşdirilməsi və seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün verilmiş əmlak barədə məlumatlar istisna olmaqla) əsasında sosial yardımın dayandırılmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar aşkarlandıqda, sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır.

Ailənin sosial yardım almaq hüququna baxılma zamanı sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə (ailənin tərkibi, əmlakı və gəliri haqqında) düzgün olmayan və ya natamam məlumat verildiyi aşkar olunduqda həmin ailə 1 (bir) il müddətinə sosial yardım almaq hüququnu itirir.

Aztəminatlı ailənin üzvü özünüməşğulluğa cəlb edildiyi hallarda, həmin ailənin sosial yardım almaq üçün müraciət etmək hüququ seçilmiş özünüməşğulluq istiqaməti üzrə əmlakın verilməsi barədə müqavilənin qüvvədə olduğu müddət ərzində məhdudlaşdırılır.

Sosial yardımın təyinatı zamanı ailə tərəfindən bilərəkdən tam və ya düzgün olmayan məlumatın verilməsi, eləcə də sosial yardımın ödənildiyi müddətdə ailənin gəlirlərində baş vermiş dəyişikliklər barədə məlumatın verilməməsi səbəbindən artıq vəsait ödənildiyi zaman sosial yardım alan ailə artıq ödənilmiş sosial yardımın məbləğini könüllü qaydada Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə qaytarmalıdır.

Bundan imtina edilərsə, bu barədə mübahisəyə məhkəmə qaydasında baxılır".

## Aktual

***Bu ilin iyulun 1-dən Azərbaycanda taksilərlə bağlı yeni qaydalar qüvvəyə minəcək. Yeni tələblərə əsasən, buraxılış tarixindən 15 ildən artıq müddət keçməyən avtomobil nəqliyyatı vasitələri üçün 3 ay ərzində elektron qaydada müraciət edərək müvafiq icazələri alanlar taksi fəaliyyətlərini davam etdirə bilərlər. Həmçinin taksi minik avtomobilinin daxilində sürücü və daşıyıcı barədə məlumatları əks etdirən məlumat lövhəsinin, taksometr və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı olan mobil cihazın, gedişhaqqının nağdsız ödənilməsi üçün POS-terminalın yerləşdirilməsi də şərt kimi qoyulub.***

# O taksinin dalınca baxma...

Bundan başqa, 1 iyul 2024-cü il tarixindən sonra buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitələrinə buraxılış kartı verilməyəcək. Həmçinin buraxılış kartı almaq üçün taksi minik avtomobilləri ən azı "avro-5" ekoloji standartına uyğun olmalıdır. Taksilərin rəngləri ağ və ya qırmızı müəyyən edilib. Qeyd edək ki, taksilərin rənglərinin ağ və ya qırmızı olması ilə bağlı tələb yalnız 2024-cü il iyulun 1-dən sonra sərnişindaşımalarında istifadə olunması üçün ölkə ərazisinə idxal edilən avtonəqliyyat vasitələrinə şamil edilir. Bəs, görəsən, yeni tələblər bazara necə təsir göstərəcək? Bu addım qiymətlərə təsir göstərəcəkmi?



■ **Mövzu ilə bağlı nəqliyyat sektoru üzrə ekspert Eldəniz Cəfərov bildirib ki, yeni qaydaların həm müsbət, həm də mənfi tərəfləri mövcuddur: "Bu gün Bakı şəhərində həddindən artıq taksi avtomobilləri var. Taksi fəaliyyəti ilə isə məhz peşəkarlar məşğul olmalıdır.**

Bu işə əyləncə kimi baxan şəxslər gedib başqa işlərlərlə məşğul olsalar, daha yaxşı olacaq. taksi peşəkar sahə kimi yenidən dirçəlməlidir. Taksi ictimai nəqliyyatın bir qoludur və burada da sürücülər avtobus seqmnetində çalışan həmkarları kimi səliqəli qayda qanuna riayət edən olmalıdırlar. Yeni qaydalar buna imkan verir".

Ekspert vurğulayıb ki, Bakı şəhərinin də digər şəhərlər kimi öz xüsusiyyətləri var: "Paytaxt olaraq Bakıda minik avtomobillərinin rəngləri ağ və qırmızı olaraq seçilib. Bu da normaldır və prinsipial məsələ deyil. Qayda taksi operatoru şirkətləri ilə və fərdi qaydada çalışan vətəndaşlara da şamil olunur. Onlar da taksi fəaliyyəti ilə məşğul olursa, avtomobillərinin rəngləri ağ və qırmızı olmalıdır. Yeni qaydaların mənfi tərəflərinə gəlincə, bu qərarda mənfi tərəfləri şərtləndirən müxtəlif amillər də var.

Məsələn, əgər taksilərlə bağlı yeni qaydaları tətbiq etsək və ictimai nəqliyyatın avtobus və taksi seqmentini gücləndirməsək, orada da əlçatanlığı təmin edə bilməsək, marşruta buraxılan avtobusların, metro qatarlarının sayını artırmasaq, bu zaman avtomobilləşmə yenidən vüsət ala bilər". Onun sözlərinə görə, əgər taksilərin sayı kəskin azalacaqsa, tələb çoxalacaq, təklif isə azalacaq: "Belə olanda vətəndaşlar yenə də fərdi avtomobillərə üstünlük verəcəklər. Təzə maşın ala bilməyənlər belə köhnə maşın alacaqlar. Bu hal gözləniləndir".

■ **Məsələ ilə bağlı sosial məsələlər üzrə ekspert İlqar Hüseynli bildirib ki, yeni tələblər bir sıra çətinliklər yaradacaq:**

"Yeni tələblər taksi fəaliyyəti ilə məşğul olan şirkətlər və ya fiziki şəxslər üçün əlbəttə ki, müəyyən çətinliklər yaradacaq. Çətinliklər o olacaq ki, məsələn, tələblərə əsasən taksi avtomobilləri yalnız ağ və ya qırmızı rəngdə olmalıdır, minimum "Avro-5" standartına cavab verməlidir, istehsal tarixi 15 ildən çox olmamalıdır. Bu tələbatın hazırda taksi fəaliyyəti göstərən əksər nəqliyyat vasitələrində mövcud olmaması sirr deyil. Bu isə o deməkdir ki, yenidən taksi fəaliyyəti ilə məşğul olmaq üçün istər fiziki sahibkarlar, istər taksi şirkətləri, qısa müddət ərzində bu tələblərə cavab verən avtomobilə sahib olmaq üçün mövcud avtomobillərini ya satmalıdırlar, ya dəyişdirməli və ya rəngləməlidirlər. Bu da müəyyən xərclər yaradacaq".

Bununla yanaşı ekspert qeyd edib ki, taksilərlə bağlı yeni tələblər avtomobillərin və sərnişinlərə göstərilən xidmətin keyfiyyətini artıracaq: "Belə olan halda əlbəttə ki, qiymət artımı qaçılmazdır. Düşünürəm ki, həmin bu xərclər qarşılığında taksi daşımalarının qiymətində ciddi artım olacaq. Qiymət artımı qaçılmaz olsa da, hər bir halda keyfiyyətli xidmətin şahidi olacağıq. Çünki bütün bu tələblər vətəndaşlar, onların təhlükəsizliyi və rahatlığı üçündür".

■ **Mövzu ilə bağlı iqtisadçı ekspert Xalid Kərimli də qeyd edib ki, yeni standartların müəyyənləşdirilməsinin taksi bazarına müəyyən təsirləri olacaq:** "Lakin irəli sürülən tələblər normal tələblərdir. Dünyanın hər yerində taksinin rəng standartı, taksometr və videoregistrator tələbi olur. Bunlar təhlükəsizlik məsələləridir. Əslində dövlət taksi bazarını tənzimləmək üçün saya müdaxilə etməkdənsə, standartlar müəyyən etməlidir ki, vətəndaşın təhlükəsiz hərəkəti və ətraf mühitin təmizliyi təmin edilsin. Nəticədə əhali keyfiyyətli xidmətləri ilə təmin olunmalıdır. Qiymət və sayla bağlı fikirlər isə lazımsızdır".

Qoyulan tələblərin qiymətlərə təsirinə gəlincə ekspert deyir ki, buraxılış ili ilə bağlı qoyulan 15 illik limitin bazara əhəmiyyətli təsiri olmayacaq: "Taksi bazarında qiymətlər taksi təklifi aşağı düşdüyü halda yüksələ bilər. Bu tədbirlərin taksi sayına əhəmiyyətli təsir göstərəcəyini düşünmürəm. Taksi provayderləri vəziyyətə adaptasiya oluncaq, öz parklarını dəyişəcəklər". X.Kərimlinin sözlərinə görə, son 20-30 ildə taksi fəaliyyəti ilə bağlı ciddi addımlar atılmırdı və azad rəqabət mövcud idi: "Lakin bunun da bir çox problemləri ortaya çıxdı.

Taksi fəaliyyəti ilə bağlı standartların müəyyən edilməsi, taksi təklifinə və qiymətlərə təsir edə bilər, lakin güman etmirəm ki, bu, kəskin qiymət fərqlərinə gətirib çıxaracaq. Bazarda rəqabət davam etdiyi müddətdə qiymətlər sərbəst formalaşacaq. Hökumət də birdənbirə bazarı silkələmək əvəzinə, müəyyən qədər təsir edəcək".

> "
>
> *Taksilərlə bağlı yeni tələblər avtomobillərin və sərnişinlərə göstərilən xidmətin keyfiyyətini artıracaq:*
>
> *Taksi fəaliyyəti ilə isə məhz peşəkarlar məşğul olmalıdır*
>
> *Taksilərlə bağlı yeni tələblər avtomobillərin və sərnişinlərə göstərilən xidmətin keyfiyyətini artıracaq*
>
> *Taksi bazarında qiymətlər taksi təklifi aşağı düşdüyü halda yüksələ bilər*

✍ ***Sevinc***

# "Qarabağ - həsrətdən Zəfərə"

***Salam olsun sənə ey dünyada ən dəyərli nemət olan vaxtını bu sətirləri oxumağa xərcləyən çox dəyərli oxucum! Dünyanın, təbiətin belə gözəl çağında bizə növbəti bir görüş ərmağan etdiyinə görə şükür olsun Böyük Allaha! Bu dəfə haqqında söhbət açacağım şəxs - imza çoxunuza tanış olmaya bilər. Doğrusu (tam səmimi), mən özüm də elə bu şəxsi son bir-iki ildə yaxından tanımışam. Və nə yaxşı ki, tanımışam... Girişə çox vaxt itirmədən birbaşa "Qısa arayış"a keçmək istəyirəm:***

## Ədəbiyyat




### (Rəfail Tağızadənin kitabı haqqında)

**QISA ARAYIŞ**

*Tağızadə Rəfail Alı oğlu*

*Şair, publisist, esseist, tərcüməçi.*

11 fevral 1958-ci ildə Ağdamda doğulub. Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) təhsil alıb. Müxtəlif vəzifələrdə çalışıb.

Azərbaycan Milli Ordusunda zabit kimi ön cəbhədə qulluq etməklə bərabər, həm də Milli Ordunun yaradılmasında iştirak edib. Ordu Birləşməsi Komandanlığı tərəfindən "Şah İsmayıl Xətai" və başqa Fəxri fərmanlarla, gecə döyüşünün təşkilinə görə qol saatı, müxtəlif hədiyyələrlə təltif olunub.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Eyni zamanda tanınmış həkim-şair-bəstəkar Şahin Musa oğlunun sədr olduğu AYB-nin Hərbi Vətənpərvərlik Komissiyasının yeni seçilmiş üzvlərindən biridir.

"Qapı"(2004) və "Qarabağ rüzgarları" (2009), "Gecə xəyalları" (2013), "Su üzərində bahar" (2019), "Şəhid qardaşlar" kitablarının müəllifidir.

Dünya şöhrətli alim Rafiq Əliyev haqqında "Su kimi sakit və güclü" (2019) kitabını tərtib edib.

Çağdaş dünya ədəbiyyatını, xüsusi ilə polyak şairlərinin şeirlərini dilimizə tərcümə edib.

"Qəfil görüş" çağdaş polyak şeir antologiyası kitabının həmmüəllifidir.

Polyak şairlərinin şeirlərini tərcümə edərək "Şairlər eyni dildə danışırlar" kitabını hazırlayıb.

Çoxlu sayda kitabların redaktorudur.

Azərbaycan və İctimai Radiolarda Qarabağla bağlı esse və publisistik yazılarından ibarət kompozisiyalar hazırlanıb.

Beynəlxalq Rəsul Rza mükafatı laureatıdır (2006). ("Qarabağ Qazisi haqqında ballada" poemasına görə).

Prezident mükafatçısıdır (2011).

"Ziyadar" mükafatı laureatıdır (2024).

"Şopenin ürəyi" poemasına və dahi bəstəkar Frederik Şopenin 200 illik yubileyi ilə əlaqədar Şopenin Azərbaycanda təbliğinə görə Polşanın Mədəniyyət və Mədəni İrs naziri tərəfindən xüsusi Diploma layiq görülüb.

Ədəbiyyat üzrə Nobel Mükafatçısı Çeslov Miloşun Polşada keçirilən 100 illik tədbirində Azərbaycanı təmsil edib.

"Mədəniyyətlərin Dialoqu və İnteqrasiyası Mərkəzi" İB-nin sədridir.

"Ədəbi ovqat" dərgisinin təsisçisidir.

Şeirləri ingilis, polyak, italyan, alman, fransız, rus, ukrain, özbək dillərinə və Anadolu türkcəsinə çevrilib.

"Qarabağ - Həsrətdən Zəfərə" (2023) müəllifin işıq üzü görmüş ən yeni kitabıdır. "Füyuzat" (Bakı) nəşriyyatında nəfis şəkildə tərtib olunaraq nəşr olunmuş kitabı şanlı Zəfərimizə dəyərli töhfə, ictimayətin qələm adamlarından gözlənti dolu - "hanı sizin yazdıqlarınız?!" çağırışına sanballı cavab kimi dəyərləndirmək olar. Rəfail Tağızadə imzası ilə səngər həyatına dair materiallar axtararkən tanış oldum. Ömrünün on ilə yaxın bir hissəsini çiynində silah, əlində qələm (ordunun ən çətin dönəmlərində qum-qumasında suyu, "ruqzaq"ında çörəyi olmasa belə döş cibində həmişə gündəliyi olan) səngərlərdə keçirmiş bir ordu mənsubu olaraq böyük əminliklə qeyd edə bilərəm ki, Rəfail Tağızadə bu qəbildən mətn nümunələri yaratmış ən müvəffəq müəlliflərdən biridir. Məsələyə belə bir örnəklə aydınlıq gətirmək istəyirəm. Səngər həyatından bəhs edən istənilən söhbətdə mən öz yazdıqlarımdan çox Rəfail Tağızadənin yazdıqlarına önəm verirəm. Konkret olaraq Yadigar Təvəkgülün "Xatirə Yağışı" kitabını tərtib edərkən Rəfail Tağızadənin "Uçuq evdə payız", "Yadından çıxarma" şeirlərindən istifadə olunmuşdur. Bu qeyd olunmuş iki nümunəni digər alternativ variantlardan fərqləndirən üstün cəhət bədiiliklə reallığın çuğlaşması nəticəsində yaranmış vəhdətdən doğan təbii, səmimi, çılpaq doğru mənzərədir. (Maraqlananlar istənilən internet axtarış sistemində Yadigar Təvəkgül " Xatirə Yağışı" yazıb axtarmaqla kitabın elektron variantı ilə tanış ola bilərlər.)

**"Qarabağ - həsrətdən Zəfərə"**

"Qarabağ - həsrətdən Zəfərə" kitabına gəlincə, kitabın üzqabığının rəngi müəllifin demək istədiyinin tən yarısını deyir, oxucuya çatdırır desək, yanılmarıq. Belə bir uğurlu başlanğıcla kitabla tanış olmağa başladıqda ikinci sevindirici məqam texniki (orfoqrafik) qüsurların yox dərəcəsində olmasıdır. Kitabı dövrümüzdəki kitab çapı bumunda çağdaşlarından fərqləndirən əsas özəllik onun tərtibi zamanı müəllifin nəsr-nəzm ayrıseçkiliyinə yol vermədən, klassik Şərq kitab tərtibi üslubuna xarakterik qaydada həm poeziya, həm də proza nümunələrinin növbəliyi əsasında (dastanvari) gözə görünməyən süjet xətti üzrə "həsrətdən - Zəfərə" doğru irəliləyərək "44 günlük" savaşda Şuşa zirvəsində kuliminasiya nöqtəsinə çatıb, Cıdır düzündə dincəldikdən sonra nəticəni elan etməsidir.

Söhbətin bu məqamında Aygün Bağırlının kitaba yazdığı tam əhatəli ön sözü mütləq qeyd etmək lazımdır. Özünlə Yurdun arasında sərhəd çəkmək, hələ bu azmış kimi bu sərhəddə postda dayanıb özünü Yurdundan, Yurdunu özündən qorumaq Bundan dəhşətlisi yoxdur. Yəqin ki, bu sətirləri oxuyanlardan kimsə mütləq uzun illər əvvəl Aqil Abbasın özü haqqında olan bir sənədli filmdə "Dördyol"da Ağdama gedən asfalt yolun üzərinə qurulmuş simvolik maneəni xatırlayacaq. Bu nöqtədən o yana keçə bilmərsən Həsrət bax həmin o nöqtədən başlayır Bu halın nə demək olduğunu çəkmədən nə dərk etmək, nə də təsvir etmək mümkün deyil. Bax həmin bu nöqtə Rəfail Tağızadə ustalığının mayası, uğurunun söykəndiyi başlıca amildir. Tağızadə Rəfail Alı oğlunu şair, publisist, esseist, tərcüməçi kimi təsnifatlandırıb təqdim etməzdən əvvəl şübhəsiz ki, biz texniki təmayüllü dəqiq elmlər üzrə sistemli təhsil almış istedadlı şəxs kimi baxmalıyıq.

Bu məsələyə əvvəlki yazılarımda da dəfələrlə toxunduğuma görə sadəcə kiçicik bir xatırlatma ilə kifayətlənərək, Rəfail Tağızadəni özü kimi ədəbiyyatçı (filoloq) olmayan qələm adamlarından fərqləndirən əsas məziyyətləri, müasir danışıq dilinə yaxın tərzdə ifadə etməyə çalışsaq həyatın ona verdiyi, real səngər həyatı yaşamaq və Yurdundan ayrı düşərək uzun illər həsrət çəkmək kimi "bonus"ları xüsusi qeyd etmək istəyirəm. Müəllif kitaba məhz bu sualla başlayır. Yola bu silahla çıxır. Çox dəyərli Aygün xanımın verdiyi əhatəli (mübaliğəsiz) girişin həmən ardınca kitabın 8-ci səhifəsində (mənim üçün təsadüf anlayışı yoxdur) "Həsrət yolçusu" adlı şeirində həm özünə, həm oxucusuna ünvanladığı.

**Ay bu yolu gedən yolçu,**
**Yolu, səmti bilirsənmi?**

sualla başlayır "həsrət"dən "Zəfər"ədək uzanan keşməkeşli, təxminən bir qərinəlik yoluna... Rəfail Tağızadə bir müəllif, yurdsevər yurddaş kimi özünün bu yola dərindən bələd olduğunu yol boyu "Vaqonun altından asılan beşik", "Qızılgül", "Yolçu, ordan quş göndər, dimdiyində torpağım", "Qaçqın qəbiristanlığı", "Getmək istədiyim yer göz önündə", "Orda bir ev var", "Qalx ayağa gedək, qardaş", "...1993...", "Sabahı gözəl Şuşam" və "Mən sənin sərhədin, vətən" adlı dayanacaqlarda, kölgəliklərdə, bulaq başında, arx üstündə, darvazası olmayan doqqazlarda dəfələrlə sübut edir, təsdiqləyir. Oxucusuna öyrədir. Sanki hər epizoddan sonra "Bir qalanın sirri" filmində kitabların Elşənə ünvanladığı sual adamın beynində rezonans verir... Məncə əsl mətləbi bax bu yola az-çox bələdçiliyi olan oxucu anlayacaq.

Belə ümumi baxışdan sonra üş(ç) konkret məqam üzərində qısa dayanaraq söhbətimi yekunlaşdırmaq istəyirəm. Birinci kitabdan bir nəsr nümunəsindən kiçicik parça:

"Hər kəsə verilməyən çiçək

Qarabağın hər yeri gözəl idi. Dağı da, dərəsi də. Torpağı, suyu, havası da. Əldən yerə nə düşürdüsə, bitirdi. O yerlərdə qoz ağacını qarğalar əkirdi.

Baharı laləzara dönərdi.

Meyvələrin tamı, güllərin, çiçəklərin ətri bambaşqa idi.

Bənövşənin də " ardı kitabda. Səh. 33.

İkinci bir nəzm nümunəsinin mətləbi haqqında və özündən parça:

"Doqquz qoz ağacı haqqında ballada

Şəhərə məcburi köçməli olan anam iki dəfə yaman kövrəldi:

bir dəfə mən bazardan bayramlıq qoz alıb gətirəndə,

Qarımış qoz ağacında
qarğalar qoz-qoz oynadır,
süpürülməyən xəzəllərin altında
neçə ilin bayramlıq qozu yatır.
Doqquz qoz ağacı vardı kənddəki həyətimizdə
doqquzu da bir-birindən böyük,
bir-birindən uca,
budaqları haça-haça.

Hələ kənd bağındakıları demirəm. "ardı kitabda. Səh. 18.

Üçüncü isə kitabda səh.150 - də yer almış "Heykəlin təbəssümü" haqqında.

Bir dəstə bənövşəni "CD", "DVD" və ya ən müasir yaddaş kartı ilə müqayisə edərdim Hər dəfə bir dəstə bənövşə gördükdə (hələ onun ətri) insanın bütün uşaqlığı, gəncliyi kino lenti kimi gözü önündə canlanır. Bir dəstə bənövşə sözün əsl mənasında bir qəlbin açarı, bir ruhun yelkənidir. Eşq olsun, Rəfail Tağızadə!

"Qoz ağacı" məsələsi - bu giriləsi kol deyil Yaralı yerimizdir Yəni ən azından bu kiçik həcmli bir kitaba məlumatlandırma xarakterli ümumi baxışdan ibarət olan yazıda bu məsələdən söz salmağın yeri yoxdur. Deməlini Rəfail Tağızadə deyib.

"Heykəlin təbəssümü"nə gəlincə bu mənə çox maraqlı gəldi. Bura qədər elə bilirdim ki, "heykəlin güldüyünü təkcə mən görmüşəm" bu yerdə "BU GECƏ NATƏVAN GÜLÜMSƏYİRDİ" şeirindən bir parçanı təqdim edib söhbətimi yekunlaşdırıram:

Bu gecə Şuşada göydən nur yağır,
Hər kəsin üzündə qürur, təbəssüm!
Yurdun oğlun, qızın görüb bəxtiyar,
Xan qızı Natəvan edir təbəssüm!
14-15.07.2022. - Bakı.

Şeiri tam olaraq Zaur Ustac "Bu gecə Natəvan gülümsəyirdi" yazıb axtarış etməklə internetdən tapıb oxumaq olar.

Dəyərli oxucum, əlbəttə, həcmindən asılı olmayaraq, istənilən yazıda bütün məsələlərə toxunmaq, maraqlı sualların hamısı haqqında fikir bildirmək mümkün deyil. Ancaq mən çalışdım ki, oxucuda kitab haqqında ilkin bir fikir formalaşdıracaq yığcam yazı hazırlayım və bu yazımda, heç olmasa, bir-iki nümunəni olduğu kimi təqdim edim, qısa fikirlərimi bildirim. Ümidvaram ki, müəyyən mənada məqsədimə nail olmuşam. Dünyada ən dəyərli nemət olan vaxtınızı bu sətirləri oxumağa həsr etdiyinizə görə sizə öz dərin təşəkkürlərimi bildirirəm. Sağ olun. Allah amanında. Allah sizi qorusun!

***✍ Müəllif: Zaur Ustac,***
***"Yazarlar" jurnalının***
***baş redaktoru***

## HƏFTƏ REYTİNQ

### Həftənin AÇIQLAMASI



"Birincisi, mən kral deyiləm, özümü heç vaxt kral hesab etməmişəm. Futbol böyük ailədir. Burada futbolu sevən, inkişafı istəyən insanların birlikdə çalışması vacibdir. Böyük etimad göstərilib. Mənə də böyük etimaddır", - bu fikirləri AFFA-nın yeni rəhbəri seçilən SOCAR prezidenti Rövşən Nəcəf jurnalistlərin suallarını cavablandırarkən deyib.

### Həftənin GƏLİRİ



Ukrayna Prezidenti Volodimir Zelenski və ailəsinin ötən il üçün gəliri açıqlanıb. Bu barədə Ukrayna Prezidentinin ofisi məlumat yayılıb. Bildirilib ki, Zelenski və ailəsinin gəliri 12 milyon 423 min 008 qrivna (təxminən 317 min ABŞ dolları) təşkil edib. Zelenskilər ailəsinin 2023-cü ildəki gəliri əsasən əməkhaqqı, bank faizləri və daşınmaz əmlakın kirayə verilməsindən əldə edilən gəlirdən ibarət olub. Qeyd olunub ki, bu məbləğ 4 milyon 967 min 036 qrivna (təxminən 127 min ABŞ dolları) təşkil edib.

### Həftənin BƏLƏDİYYƏ SƏDRİ



Türkiyədə keçirilən bələdiyyə seçkilərində tanınmış teatr və kino aktyoru Erdal Beşikçioğlu da qələbə qazanıb. Sənətçi paytaxt Ankaranın Etimesgut bələdiyyəsinin sədri seçilib. Ən son məlumata görə, namizəd 56,47 % səs toplayıb. E. Beşikçioğlu seçkilərdə CHP namizədi olaraq iştirak edirdi.

### Həftənin NİDASI



"Bu barədə çox danışmağa ehtiyac yoxdur. Mən öz fikirlərimi yayındırmaq istəmirəm. Uzaqdan-uzağa hansısa xəbər göndərirlər ki, olsa necə idi? Mənim cavabım qətidir, "Qarabağ"dayam. O haqda düşünmürəm", bu fikirləri "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov digər klublara başq məşqçi olaraq keçəcəyinə dair məlumatlara münasibət bildirərkən səsləndirib.

### Həftənin İTTİHAMI



Ukraynanın Təhlükəsizlik Xidməti "Russia Today" telekanalının baş redaktoru, ermənisilli jurnalist Marqarita Simonyana qarşı 4 maddə üzrə yeni qiyabi ittihamlar irəli sürüb. Simonyan əsas olaraq soyqırıma çağırış, hərbi münaqişənin təbliğ edilməsində, Rusiyanın Ukraynaya qarşı həyata keçirdiyi hərbi əməliyyata haqq qazandırmaqda ittiham edilir. Ermənisilli jurnalist 2023-cü ilin dekabrında ukraynalı uşaqların kütləvi öldürülməsinə ictimai şəkildə çağırış edib.

### Həftənin TƏQAÜDÇÜSÜ



Türkiyəli ifaçı Yıldız Tilbe təqaüdə çıxdığını açıqlayıb. Bu barədə "Habertürk" məlumat yayıb. Bildirir ki, 57 yaşlı sənətçi bununla bağlı sosial media hesablarında paylaşım edib. Lakin sənətçi alacağı vəsaitdən gileylənib: "Əvvəllər təqaüdə çıxanda ev, maşın almaq, ya da iş qurmaq olurdu. İndi bizə Allah kömək etsin, başqa kömək olan yoxdur. Ömür boyu işləməyin qarşılığı bu, olmamalıdır".

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Buraxılış imtahanında yüksək bal toplayanlar**

## Qafqazın taleyi Azərbaycanın əlindədir

**Məlahət İbrahimqızı,**
Milli Məclisin deputatı

Ermənistanı səmimi müdafiə etdiklərini bildirən Fransa, ABŞ siyasətçiləri həmin ölkələrdəki güclü erməni diasporasının pulundan bəhrələnirlər. Səh. 3

## STATİSTİKA



**Bakı metrosunun bütün stansiyalarında ötən ilin dekabr ayının 30-da istifadəyə verilmiş QR biletlə ödəmə sisteminin populyarlığı daha da artmaqdadır.**

Martda bu üsula müraciət edənlərin sayı əvvəlki ayla müqayisədə 20 faiz artıb. Belə ki, fevral ayında orta statistik hesabla gün ərzində 5104 sərnişin QR biletdən istifadə edibsə, martda bu rəqəm 5728 nəfər təşkil edib. Fevralın iş günlərində istifadəçi sayı 6 mindən artıq olurdusa, mart ayının hər iş günündə 7350-dən artıq istifadəçi sayı qeydə alınıb.




Səh. 6

## Nikah müqaviləsi vacibdir